Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Azərbaycan ədəbiyyatının söz və fikir zadəganı
# Hüseyn Cavid

Hüseyn Cavidin 135 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsai

**Bakı -2017**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

Azərbaycan ədəbiyyatının söz və fikir zadəganı - Hüseyn Cavid: metodik vəsait / tərt. ed.: A.Əliyeva; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.-74 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

Zaman gələcək yazılmamış əsərlərimə, qaranlıq zindanıma xalqım da ağlayacaq. Tarixə, xalqa xeyir vermiş, vaxtından əvvəl itirilmiş günahsız, ləkəsiz zavallılar için nə qədər təəssüf ediləcək

H.Cavid

Hər bir xalqın ədəbiyyat tarixində elə şəxsiyyətlər olur ki, onların yaratdığı sənət möcüzələri əbədi olaraq qalır, neçə-neçə nəsillərin bədii zövqünü oxşayır. Azərbaycan ədəbiyyatı tarixi belə şəxsiyyətlərin adı və ədəbi irsi ilə sıx zəngindir. Onların hər birinin yaradıcılığı bir dünya olub, öz epoxasının həyatına güzgü tutmaqla həqiqətləri bizə çatdırır. Bunların içərisində görkəmli Azərbaycan şairi Hüseyn Cavidin xüsusi yeri vardır. Öz dəst-xətti ilə Azərbaycan ədəbiyyatında yeni mərhələnin, eləcə də mənzum dramın əsasını qoyan, sələf və xələflərinə bənzəməyən Hüseyn Cavid qəlbinin dediklərini yazan, ömrü boyu həqiqətin əsiri olan, ancaq gözəlliyə tapınan qeyri-adi bir mütəfəkkir idi. Faciəli ömrün qəmli dastanını yazan şair H.Cavidin söykəndiyi həqiqətin bir mənası olub: xalqını azad, xoşbəxt, millətini birlikdə, vətənini isə sivil dövlətlərin sırasında görmək. Bu həqiqəti tapmaq və ona qovuşmaq yolunda Cavid dövrünün sərt qadağaları, sədləri ilə üzbəüz dayanıb. Onun bədii düşüncəsi, yazıları sənət tariximizin əvəzsiz nümunələrindən biri idi. Həyat və yaradıcılığı, əsərləri və ədəbi mövqeyi ədəbiyyatşünaslıqda, bədii estetik fikir tarixində, dərslik, metodik vəsait və məqalələrdə geniş tədqiq olunan, öyrənilən böyük şəxsiyyət Hüseyn Cavid XX əsr Azərbaycan və dünya romantizmin görkəmli nümayəndəsi və gözəlliyi, həqiqəti dərk etdirən, yaşamaqla yanaşı yaşamağın sirlərini öyrədən dahilərlərlə bir sırada adıçəkilən, millətin tərəqqi və nicat yolunu

sənəti və idrakı ilə dərk edən, çıxış yolunu göstərməyə çalışan sənətkarlardandır. Cavidin əsərləri qədər həyatında da insanların mənəvi tərbiyəsinə təsir göstərən amillərin olması da yüksək mənəviyyat xəzinəsidir, insanları haqqa, ədalətə, doğruluğa və ən əsası, ruhani yüksəkliyə aparan yolun istiqaməti kimi dəyərli və qiymətlidir. Dahi sənətkarımız Hüseyn Cavidin bu il 135 yaşı tamam olur. Bu münasibətlə hazırladığımız vəsait iki hissədən ibarətdir. I hissə *"Haqq yolçusu-Hüseyn Cavid"* adlanır. Vəsaitdə dahi mütəfəkkirin həyat və yaradıcılığından bəhs edilir. *"Cavidin söz dünyası"* adlanan II hissədə isə onun yaradıcılığı ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

Həyat və yaradıcılığı

Hüseyn Cavid 1882-ci ildə Naxçıvanın indiki Kəngərli Rayonunun Şahtaxtı kəndində ruhani ailəsində dünyaya göz açmışdır. İbtidai təhsilini Naxçıvanda molla məktəbində, orta təhsilini M.T.Sidqinin "Məktəbi-tərbiyə" adlı yeni üsullu məktəbində almışdır (1894-1898). 1899-1903-cü illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin "Talibiyyə" mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmiş (1909), Naxçıvanda, sonra isə Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir. Hüseyn Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. O, XX əsr Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur. Hüseyn Cavid sənəti janr və forma cəhətdən zəngindir. O, lirik şeirlərin, lirik-epik, epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların banisidir. "Keçmiş günlər" adlı ilk şer kitabı 1913-cü ildə çap olunmuşdur. Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub, yazı ədası forma yeniliyi baxımından

Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmiş, "Cavid teatrı" kimi səciyyələndirilmiş, dramaturgiyasında dövrün ümumbəşəri, böyük ictimai-siyasi və mədəni əhəmiyyətə malik problemləri əksini tapmışdır.

Azərbaycan ədəbiyyatında ilk mənzum faciə olan "Şeyx Sənan" (1914) əsərində xalqları bir-birinə qovuşdurmaq üçün ümumbəşəri din ideyasını ortaya atmışdır. Hüseyn Cavid bu dövrdə tədriclə "haq verilmir, alınır" ideyasına gəlib çıxmışdır. Hüseyn Cavid sənəti janr və forma cəhətdən zəngindir. O, lirik şeirlərin, lirik-epik, epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir. "Keçmiş günlər" adlı ilk şer kitabı 1913-cü ildə çap olunmuşdur. Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Yaradıcılığında mühüm yer tutan "İblis" (1918) mənzum faciəsində dövrün bütün mürtəce qüvvələri - "Insan insana qurddur" fəlsəfəsinin tərəfdarları, "İyirminci əsrin mədəni vəhşiləri" olan dairələri İblis surətində ümumiləşdirilmiş, işğalçı müharibələrə lənət yağdırılmışdır. 1926-cı ildə müalicə üçün Almaniyaya gedən və 7 ay Berlində yaşayan Hüseyn Cavid oradan ziyalıların mənəvi iztirablarını əks etdirən bir sıra siyasi-lirik və lirik-epik şerlərlə qayıtdı. 20-30-cu illərdə Hüseyn Cavid bir sıra tarixi dramlar yazmışdır. "Peyğəmbər" (1922) və "Topal Teymur" (1925) əsərlərindən sonra yazdığı "Səyavuş" (1933), "Xəyyam" (1935) tarixi dramları Hüseyn Cavidin tarixə, tarixi şəxsiyyətlərə baxışında ciddi dönüş oldu. Cənubi Azərbaycandakı azərbaycanlıların "şahənşahlıq" üsuli-idarəsi əsarəti altında əzab çəkməsi, ən adi insan hüquqlarından məhrum edilməsi də vətənpərvər şair kimi Hüseyn Cavidi düşündürürdü ("Telli saz" dramı, 1930; "Kor Neyzən" poeması, 1930).

Sovetlər Birliyində totalitarizmin dəhşətli dövründə Hüseyn Cavid sosializmin "nailiyyətlər" indən yazmağı özünə rəva bilməmiş, Stalini, Azərbaycan ağalarını mədh etməkdən qətiyyətlə boyun qaçırmışdır. Ona görə də bu mətin şəxsiyyət Sibir buzlaqlarına, Maqadana sürgün edilmiş və 5 dekabr 1941-ci ildə İrkutsk vilayətininTayşet rayonunun Şevçenko kəndində həlak olmuşdur.

Hüseyn Cavid Azərbaycan ədəbiyyatının söz və fikir zadəganıdır. Daxili ləyaqəti sənət idealına son dərəcə uyğunlaşmışdı. Bəlkə də bu sənət idealı onun daxili ləyaqətini illər, on illər boyu formalaşdırmışdı. "Gözəllik namına, sevqi namına" yazan böyük sənətkar neft buruqlarından və dəniz qəhrəmanlarından, tarlada səhərdən gecəyədək çalışan əmək qabaqcıllarından tərənnüm dolu süni misraların sayını çoxaltmadı. Azərbaycan yaradıcı fikri bu süni misralar təlatümündə boğulduğu bir zamanda həyatı bahasına olsa da, Cavid öz sənət idealına xain çıxmadı, onu satmadı. Gözəllik və sevgi şairi idi, eləcə də qaldı.

Filmoqrafiya:

1. Cavidi xatırlarkən (film, 1982)
2. Topal Teymur (film, 1983)
3. Hüseyn Cavid (film, 1988)
4. Qayıdış (film, 1992)
5. Səma şairi (film, 2003)
6. Cavid ömrü (film, 2007)

Xalqımızın görkəmli qələm sahibi, azadlıq carçısı Hüseyn Cavidin 135 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər; kitab müzakirəsi, oxucularla söhbət, konfrans, icmal, dəyirmi masa, rəsm və şeir müsabiqəsi, səhnəcik, ədəbi-bədii gecə və s. keçirilə bilər. Bu böyük şəxsiyyətin yaradıcılığını, ölkəmizə

olan qayğı və xidmətlərini gənc nəslə və oxuculara çatdırmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil oluna bilər. Sərgidə şairin müxtəlif illərdə çəkilmiş foto stendi, kitabları ilə yanaşı ədəbiyyatşünas və digər müəlliflərin onun haqqında yazdığı kitablar, araşdırmalar, ona ithaf edilən şeirlər, kəlamlar və dövrü mətbuatda yer alan məqalələr öz yerini almaqdadır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Faciəli ömrün qəmli dastanını yazan şair", "Söz sənətinin böyük rəssamı", "Cavidə üz tutanda", "Əsrinə sığmayan şair", "Nurlu ömrün işığı", "İşıqınız sönmədi, sönməyəcək", "Cavidin söz dünyası", "Düşüncə şairi-Hüseyn Cavid", "Gözəlliyə, sevgiyə tapınan həqiqət aşiqi", "Ömrün şah əsəri", "Zamanın və məkanın fövqündə yüksəlmiş şair", "Məhəbbətin qələbəsi", "Qaranlıqda parlayan nur", "Cavid irsinə dərin ehtiram", "Cavid möcüzəsi və mifik təfəkkür", "Düşüncə və ideyanın vəhdəti", "Hüseyn Cavid və modernizm","Başdan-başa Aşiq şair-Hüseyn Cavid", "İnsanları gözəlliyə, idraka, işığa səsləyən sənətkar-Hüseyn Cavid", "Haqq yolçusu-Cavid", "Cavid aləminə səyahət", "Yaşadığı illərə sığmayan söz ustadı-Cavid", "Gəldin də neçin pənbə bulutlar kibi akdın", "Cavid ocağının işığında","Keşməkeşli məhbus", "Azadlıq nəğməkarı", "Haqqı özünə, yaradıcılığı xalqa qaytarılan sənətkar", "Vaxtın fövqündən baxan mütəfəkkir-Cavid", "Faciəli ömrün qəmli dastanı" , "Taleyinin ən böyük və kəskin dramı-Hüseyn Cavid", "Əsrin romantik şairi", "Turan mələyi" və s.


İsgəndər Atilla
Əsrin Şairi
Cavid estetikası
İstanbul




HÜSEYN CAVİD
TOPAL TEYMUR
İBLİS


HÜSEYN CAVİD
DRAM ƏSƏRLƏRİ


İSGƏNDƏR ATİLLA
Əsrin şairi


Hüseyn Cavid
əsərləri


CAVİD HİKMƏTİ
seçmə
aforizmlər


dram əsərləri



## Görkəmli şəxsiyyətlərin Hüseyn Cavid haqqında söylədikləri:

Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaradıcılığı və əsərləri Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu bəlkə də Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış adamdır. Xalqımız, tariximiz nə qədər yaşayacaqsa, Hüseyn Cavidin irsi də o qədər yaşayacaqdır. Yaratdığı əsərlər Azərbaycan xalqınının milli sərvətidir.

**Heydər Əliyev,**
*Ulu öndər*

Babam Hüseyn Cavid bir günəş idi. Yüksəldi, parladı, yarasaraların gözünü kor etdi, lakin dumanlar onun qarşısını aldılar.

**Ərtoğrol Cavid,**
*H.Cavidin oğlu*

Biz Hüseyn Cavid yaradıcılığından istifadə etmiş və edəcəyik. H.Cavid yaradıcılığında biz şairlər üçün öyrənməli şeirlər çoxdur.

**Səməd Vurğun**
*Xalq artisri*

Əcaba Cavidin hansı əsəri yaşadığı mühitin, içində dolandığı xəlqin, xüsusilə Azərbaycan Türk xəlqinin ifadeyi-hal və keyfiyyətindəndir. Biz onu heç bir vəqt xəlqimizin fəryadlarilə inlədiyini, xəlqimizin sevinclərilə güldüyünü görmüyoruz.

Caviddə su kimi duru, almas kimi saf, parlaq və oynaq bir lisan vardır ki, bu, islahın çalışan lisahımızın təkamül özülü ola biləcəkdir zənnindəyik. Zatən, bir millət üçün lisanı onun şairləri, ədibləri yaradırlar ki, Cavid də bu cəhətdən qiymətlidir. Caviddə hər kəsi məftun və əsir edəcək bir qüvvəyi-şeiriyyət vardır. Zatən, əsərlərinin ən böyük gözəlliyi və qüvvəti də burasındadır... Tamaşaçılar adətən səhnəyi unudur Cavidin şeirlərindəki gözəlliklə əylənirlər. Biz bu şeir və lisanı ümumtürk aləmi-ədəbiyyat səhnəsinə xüsusi malımız kimi çıxara bilərik.

**Cəfər Cabbarlı,**
*yazıçı, dramaturq*

Bu dil gələcək nəslimizə təsiri olmamış olmaz. Və bu dil təsiri ilə yaranacaq Azərbaycan türk ədəbiyyatı marksist görüşü və qayəlorilə qüvvətləndikdən sonra, əmsalsız əsərlər meydana gətirə biləcəkdir. Bu da Cavidin Azərbaycan ədəbiyyatına ən böyük xidmətlərindən biri sayılacaqdır. Azərbaycandakı şair və ədiblərimiz içində ən müstəsna, ən zərif və ən narın bir dildir.

**Hənəfi Zeynallı**
*folklorşünas*

Cavidi tənqid üçün ikinci bir Cavid lazımdır ki, o da bizdə yox kimidir.

**İsmayıl Həqq,**
*aktyor*

Hələ tarix Cavidə əl vurmayıbdır, şairimiz bir tərəfdə oturub əsərlərini yazır. Tarix isə qulaq asır və gözləyir. Şəksiz ki, tarix vaxtında onu sənət mühakiməsinə alacaq, təbiətin ona verdiyi qüdrət və istedadın hesabını istəyəcəkdir.

**Əziz Şərif,**
*ədəbiyyatşünas, tənqidçi*

Cavid dünyası hikmətli söz və aforizmlərlə, şah beytlərindəki məna dərinlikləri ilə zəngin olan bəşəri dəyərlərdir. Onun həyat amalı xalqın azad və xoşbəxt görmək, türk dünyasının birliyi istəyidir.

**Yusif Aslanov,**
*elmlər namizədi*

Dahi mütəfəkkür Hüseyn Cavidin yubileyi ilə əlaqədar bir sıra tədbirlər keçirilə bilər. Bu tədbirlərdən biri də şagirdlər arasında keçirilən *"oxucularla söhbət*" dir və söhbət **"Zamanın və məkanın fövqünə yüksəlmiş filosof şair"** adlanır. Oxucularla söhbət zamanı Hüseyn Cavidin əsərlərində vətənpərvərlik, elm, maarif, türkçülük və məktəb, teatr məsələlərinə münasibət müzakirə olunur. İlk olaraq kitabxanaçı qonaqlara və iştirakçılara dahi mütəfəkkir şairin həyat və yaradıcılığından bəhs edir:

Kitabxanaçı: Hüseyn Cavidin poeziyası onun romantik şeirlərindən və poemalarından ibarətdir. İdealla varlıq arasındakı ziddiyyət, ideal həqiqət axtarıcılığına istiqamətlənən xəyallardan yaranan lirik-fəlsəfi düşüncələr Cavid şeirinin başlıca məzmununu təyin edir. Şairin lirik "mən" i qayğılı, narahat düşüncələr və zəngin xəyallarla yaşayan filosof xarakterli aşiqdir:

Xəyal!.. Əvət, yaşadan yalnız əhli-halı odur,
Yaşarsa bir könül, az-çox xəyal içində yaşar.

H.Cavid bədii yaradıcılığa klassik lirika üslubunda yazılmış qəzəllərlə başladığı üçün ədəbi fəaliyyətinin birinci dövründəki şeirlərinin dilində ərəb-fars tərkiblərinə rast gəlinir. Lakin belə ifadələr əsasən lirikada əsrlərdən bəri qanuniləşən "qəmi-hicran", "zülfü-yar", "əhli-dərd", "zənciri-zülf", kimi anlaşıqlı təsvir vasitələrindən ibarətdir:

Məndən fələk ayırdı vəfapişə yarımı,
Tar etdi zülfi-yar kimi ruzigarımı.
Səbrim tükəndi, yox qəmi-hicranə taqətim,
Hicri-nigar əlimdən alıb ixtiyarımı.
Bir əhli-dərd yoxdu bu viranə şəhərdə,
Tainki şərh edəm ona mən qəlbi-zarımı.
Hər kəs ki, Salika, çəkib eşqin bəlasını-
Mən eyləməz görəndə mənim ah-zarımı.

Sonrakı illərdə İstanbulda təhsil alması, türk poeziyasını dərindən öyrənməsi onun şeir dilində Anadolu şivəsinə məxsus ifadələrin fəallığını bir qədər artırmışdır. Şairin təhsil illəri zamanı qələmə aldığı "Rəqs", "Pəmbə çarşav", "Uyuyur", "Ah yalnız sən" və s. şeirləri də və 1913-cü ildə Tiflisdə nəşr olunan "Keçmiş günlər" şeir kitabında toplanan digər nümunələrdə Anadolu şivəsinin müəyyən əlamətləri nəzərə çarpır. Lakin İstanbul mühitindən ayrıldıqdan sonra şairin əsərlərində

Anadolu şivəsinə məxsus əlamətlər get-gedə azalmış, nəhayət, davamlı bir prosesdən sonra təxminən aradan qalxmışdır.

H.Cavidin şeir yaradıcılığının ilk mərhələsində janr baxımından ənənəvi iki üslubluluq özünü göstərir. Şair həmin illərdə həm klassik lirika üslubunda qəzəllər, həm də xalq-aşıq şeiri ruhunda qoşma və gəraylılar yazmışdır. Bu dövrün məhsulu olan "Get", "Könlümü" rədifli şeirlər, habelə "Hər yer səfalı, nəşəli" şeiri qəzəl formasında, "Xuraman-Xuraman" şeiri isə qoşma formasındadır. "Rəqs", "Uyuyur" və s. şeirlərdə müxəmməs və müsəddəslərin müəyyən əlamətləri müşahidə olunur. Bədii yaradıcılığın başlanğıc mərhələsinə xas olan həmin cəhət sənətkarın fərdi üslub axtarışları dövrü üçün səciyyəvi hal hesab oluna bilər. Çünki elə ilk yaradıcılıq mərhələsinin özündə də Cavidin yeni formalı şeirlər yazdığını asanlıqla müşahidə etmək mümkündür. Türkiyədə təhsil illərində yazılan "Yadi mazi", "Bir ahi-məzlumanə" şeirlərinin quruluşunda müəyyən orijinallıq vardır. Bu şeirlər hər iki üslubun-klassik lirika və xalq-aşıq lirikası üslublarının qovuşuğundan yaranmışdır. Xalq-aşıq poeziyasında olduğu kimi, şeirlər bəndlərdən ibarətdir. Lakin bəndlərin arasında klassik lirikadakı beytlərə bənzər cüt misralar verilmişdir. Dördlüklər çox vaxt çarpaz qafiyə üsulu ilə, beytlər isə məsnəvi formasmda qafiyələndirilmişdir:

Ey Vətən! Ey könül pərəstarı!
Yar ümidim, qüsura bakmayasan.
Bizə tərcih edib də əğyarı,
Burakıb nari-hicrə yıkmayasan.
Səni bu hala saldı qəflətimiz,
Daha əhv et! Yetər nədamətimiz.

Sonrakı dövrlərdə Cavidin yaradıcılığında belə orijinal quruluşlu şeirlərin sayı getdikcə çoxalmışdır. “Otuz yaşımda”, “Bir rəsm qarşısında”, “Dəniz tamaşası” şeirlərində dördlük bəndlər mənanı qüvvətləndirən və tamamlayan beytlərlə növbələşmişdir. Beləliklə, poetik forma axtarışları H.Cavidin janr sahəsində orijinal üslubunun kəşfi ilə nəticələnmişdir. Hətta bir sıra janrları, xüsusən sonet, türkü və marşları Azərbaycan şeirinə ilk dəfə Hüseyn Cavid gətirmişdir. Şairin “Mən istərim ki”, “Çəkinmə, gül” şeirləri Avropada geniş yayılmış italyan soneti formasında qələmə alınmışdır.  H.Cavid şeirlərini həm əruz, həm də heca vəznlərində yazmışdır. Hər iki vəznə yaradıcı münasibət bəsləyən şair onlara əsaslı keyfiyyət dəyişiklikləri gətirmişdir. O, əruzun klassik lirikadan məlum olan xəfif, həzəc, rəməl, müctəs, müzare, mütəqarib bəhrlərində şeirlər yazmaqla bərabər, həm də həzəc bəhrinin yeni bir növünü yaratmağa müvəffəq olmuşdur. Əruzşünaslar həmin növü “Cavid həzəci” adlandırırlar.  Əsrin əvvəllərində əruzdan hecaya keçmək də şeirdə yeni üslub axtarıcılığından irəli gəlirdi. Heca vəznli şeirə üstünlük verməklə, Hüseyn Cavid bu vəznin Azərbaycan yazılı poeziyası üçün daha da doğmalaşmasına xidmət etmişdir. O, XX əsrin əvvəllərində heca vəzninin müxtəlif şəkillərində qiymətli şeirlər yazmağa müvəffəq olmuşdur.

Orijinal təşbeh və metaforalar, epitet və təkrirlər, monoloq və dialoqlar Cavidin şeirlərində fikrin, mənanın qüvvətli və emosional vasitələrlə ifadəsinə xidmət edir. Cavidin şeirlərində təşbeh yaratmaq üçün təbiət hadisələrilə insan həyatı müqayisə olunur. Şair Qara dəniz sahillərində təsvir etdiyi səksən yaşlı qocanın məğrurluğunu canlandırmaq məqsədilə onu “ulu bir dağ”a bənzədir, bədii obrazın dolğun poetik rəsmini çəkir:

Bu keşakeşdə möhtəşəm, məğrur,
Qoca, səksən yaşında bir sima;
Uca bir dağ möhnətilə vüqur,
Qoca bir türk edib namazı əda.
Vird oxur, Həqqa eylər ərzi-niyaz,
Bəlkə dağ sarsılar, o sarsılmaz.

Hüseyn Cavidin yaradıcılığında poema janrının da özünəməxsus yeri vardır. Şair ilk poemalarını hələ XX əsrin əvvəllərində qələmə almışdır. Cavidin ilk poemaları əsasən lirik-romantik, yaxud romantik-fəlsəfi əsərlərdən ibarətdir. Bu poemaların əksəriyyətində süjet əlamətləri və obrazlar yox dərəcəsindədir. Həmin qəbildən olan poemalar sanki Hüseyn Cavidin lirik-romantik monoloqlarmdan yoğrulmuşdur. Həyata və insanlara romantik münasibət, bədii və fəlsəfi ümumiləşdirmələr bu poemaların əsas qayəsini müəyyən edir. “Bir ahi-məzlumanə” (1907), “İştə bir divanədən bir xatirə” (1912), “Hübuti-Adəm” (1913) poemalarında epik təsvirlərdən qat-qat çox lirik-romantik düşüncələr öz əksini tapmışdır. Yalnız “Hübuti-Adəm” poemasmda Adəm peyğəmbərlə Həvvanın münasibətlərindən alınmış bir məqamın təsviri şairə nəfsin fəlakətləri ətrafmda poetik mülahizələr irəli sürməyə imkan vermişdir. “Bir ahi-məzlumanə” poeması “küncü-möhnətdə” bəlaya düçar edilmiş, “ayaq altında paymal olmuş” Vətənin acı halına dərin təəssüf hisləri mənalandırılmış, qeyrət etməyə, himmət göstərməyə çağırış motivləri ifadə olunmuşdur.

Hüseyn Cavidin yaradıcılığında ideya-sənətkarlıq baxımından ən kamil poema “Azər” əsəridir. Poemanı şair hələ 1926-cı ildə Almaniyada müalicə olunarkən yazmağa başlamış, nəhayət, 1928-ci ildə tamamlamışdır.

“Azər” poeması Hüseyn Cavidin Qərbə və Şərqə, eyni zamanda Şərq-Qərb müstəvisində Azərbaycana baxışlarını geniş şəkildə

ifadə edən mükəmməl sənət əsəridir. Azərin Qərb və Şərq ölkələrinə səyahətləri yeni tarixi mərhələdə dünya gedişatını öyrənmək, inkişafa ən məqbul yolunu seçmək məqsədini izləyir. Poemada həmin ölkələrin fərqli xüsusiyyətləri haqqındakı düşüncələr Azərin simasında dünyanı, sivilizasiyaları sintez etmək meylinin ifadəsindən ibarətdir:

Şərq elləri irişilməz "xəyal" için yaşarkən,
Qərb aləmi az da olsa həqiqətdən xoşlanar.
Şərqin sönük duyğusunu afyon ruhu qoşarkən,
Onlar yeni bir silah kəşfini səadət sanır.
Şərq uğraşır yalnız "ölməyim" deyə,
Qərb elləri maildir öldürməyə.
Ya o, ya bu qoşar durar hər bir dilək peşində,
Məqsəd ancaq yarışı yok, bir həyatı xoş bulmaq.
Şərqə görə o diyarda azad ikən düşüncə,
Yazıq!.. Yenə mümkün deyil didişmədən qurtarmaq.

Əsərin əsas qəhrəmanı Azər Cavidin əksər dramatik qəhrəmanlarından fərqli olaraq tarixdən deyil, real həyatdan alınmış bir bədii obrazdır. Azər şairin müasiri, daha çox isə onun özünün proobrazıdır. Azərin yaşadığı mühitə, üzvü olduğu cəmiyyətə, Qərbə və Şərqə baxışları müəllifin şəxsi qənaətlərinin və düşüncələrinin ifadəsidir. Poemanın böyük bir hissəsində Azərin Almaniyaya səfərindən söz açılması, əsərin bir çox bölmələrinin Berlində yazılması ilə Hüseyn Cavidin Almaniyaya gedib orada müalicə olunmasının səsləşməsi də obrazla müəllifin baxışları arasında möhkəm bağlılıq olduğunu aydınlaşdırır. Bütövlükdə Azər həyata və cəmiyyətə yeni nəzərlərlə baxan, dünyada gedən prosesləri obyektiv dərk və təhlil etmək qabiliyyətinə malik olan yeni tipli bədii obrazdır. Mənsub olduğu xalqı və ölkəni mədəni millətlərin cərgəsində

görmək arzusu onun səciyyəvi cəhətidir. Azərin Qərbə və Şərqə səfərləri sadəcə səyahət, gəzinti, əyləncə olmayıb, dünyanı öyrənib məmləkətini və millətini irəli aparmaq niyyətlərinin ifadəsidir.

Poemada Hüseyn Cavid Azərbaycanda qurulmuş yeni cəmiyyətə münasibətini də ifadə etmişdir. Əsərin "Səlmanın səsi", "İnqilab xırsızı", "İsyan" bölmələrində yeni cəmiyyətin bədii dərki məsələləri ön mövqedə dayanır. Hiss olunur ki, Cavid imkan olduqca yeni cəmiyyətə yaxşı tərəfdən baxmaq meylindən çıxış edir. Səlmanm dilindən deyilən "hər gülşənə vardım, çiçəklər güldü, Sevdalı bülbüllər salama gəldi", yaxud "Susmuş kamançalar ilhama gəldi" kimi nikbin misralar şairin həmin meylinin əks-sədasıdır. Bununla belə, Cavid bu cəmiyyətin mövcud ziddiyyətlərdən xilas olmasının zəruriliyini də qabarıq şəkildə nəzərə çarpdırmışdır. Poemanm "İnqilab xırsızı" bölməsində "inqilab kürkünə girmiş" Şura sədrinin törətdiyi özbaşınalıqların təsviri ilə şair yeni qurulmuş cəmiyyətdəki eybəcərlikləri diqqət mərkəzinə çəkmişdir. Cavid Şura sədrinin alova bürünmüş evini göstərməklə geniş mənada yeni quruluşun yaşamasının mümkünsüz hala düşdüyünü ifadə etmək istəmişdir. Poemadakı kənd Şura sədrinə aid edilən "balıq başdan qoxarmış" qənaəti də, heç şübhəsiz, bütövlükdə o cəmiyyətin ən yuxarı təbəqələrinin çürüklüyünə, mənəvi-siyasi iflasa məruz qaldığına açıq işarədir. Hətta poemanın epiloqu kimi düşünülmüş "İsyan" bölməsində ifadə olunan aşağıdakı misralar da sadəcə yeni quruluşun təsdiqi mənasında deyil, daha çox çağdaş gəncliyin quracağı böyük gələcəyin, müstəqil ölkənin dəstəklənməsi kimi başa düşmək, mənalandırmaq lazım gəlir:

Bu gün gəncliyə baksan,
Bir sel kimi hər an
Sağlam, yeni məfkurələr izlər.
Bizlər?
...Bizlər yeniləşsək belə, daim,
Bir əskilik az-çox bizə hakim...
...Onlar qoşacaq, çırpışacaqlar,
Bir çox üçürümlar aşacaqlar.
Lazımsa cəhalətlə güləşmək,
Bir çarə var: ancaq yeniləşmək!
Onlardakı himmət və mətanət
Qırmaclayacaq Şərqi nihayət.
Onlardakı qüdrət və məharət,
Er-gec vercək xalqa səadət.
...Onlar güləcək güldürəcəklər,
Bizdən daha xoş gün görəcəklər!

Janr etibarilə “Azər” lirik-epik poemadır. Əsərdə dramatik ünsürlərdən də istifadə olunmuşdur. Poetik vüsətinə görə “Azər” poeması dastan təsiri də bağışlayır. Hüseyn Cavidin poemaları Azərbaycan ədəbiyyatında romantik-fəlsəfi poemanın inkişafında mühüm rol oynamışdır. Hüseyn Cavidi ədəbiyyat tarixində ən çox məşhurlaşdıran və ona böyük şöhrət qazandıran dram əsərləridir. O, Azərbaycan romantik mənzum dramaturgiyasının görkəmli yaradıcısı və banisidir. Ədibin ilk dram əsəri olan “Ana” mənzum faciəsinin (1910) mövzusu Dağıstan həyatından alınmışdır. Əsərin əsas qəhrəmanı olan qonaqpərvər və məğrur Səlma Azərbaycan ədəbiyyatı üçün yeni tipli Ana obrazıdır. Onun İsmət adlı bir çərkəz qızına nişanlı olan oğlu Qanpoladla bu qıza könül salan Orxan arasında rəqabət vardır. İsmət isə kasıb ailəni təmsil edən Qanpolada sadiq qalır və Orxanın cah-cəlalını rədd edir. Orxan dostu Muradın vasitəsilə Qanpoladı öldürtdürür. Murad təhlükədən xilas olmaq

üçün kimliyini bilmədən Səlma xanımın - Ananın evində sığınmaq istəyir. Ana oğlunun qatilini tanısa da, dərin daxili sarsıntılarına, mənəvi iztirablarına, qəzəbinə qalib gəlməyi bacarır. "Namərd qonağı" evindən uzaqlaşdımaqla cəzalandıran Ana bu acı, qanlı taleyin səbəbini Allahın qisməti ilə əlaqələndirir:

Get, namərd qonaq, get! Alçaq mültəci!
Get, miskin hərif, get! Cəllad, yırtıcı!
Get, vicdansız kəndini qurtar, yaşa!
Ancaq vicdansızları bəslər dünya!
Get, gözüm görməsin! Uzaqlaş, dəf ol!
Nə haqsızlıq etdinsə Allahdan bul!
Get, çəkil get! Dinsiz, Allahsız xain!
Murdar izin bu torpaqdan silinsin!

Övladının qatilini bağışlamağı bacaran Səlma surəti dünya ədəbiyyatı üçün də təkrarsız bədii obrazdır.

Cavidin "Maral" və "Şeyda" pyesləri nəsrlə yazılmışdır. Hər iki əsərdə şeir parçalarından, lirik elementlərdən istifadə olunmuşdur. Ailə-məişət planında qələmə alınmış "Maral" pyesi (1912) pulun, sərvətin cəmiyyətdə törədə biləcəyi faciələri əks etdirir. Yaşca çox kiçik olan Maralı altun gücünə özünə arvad etmiş Turxanbəy üçün dünyanm bütün səadəti yalnız para ilə bağlıdır. Muasiri Nadirbəyin mənəviyyat, tərbiyə, sağlam düşüncə haqqındakı fikirlərini o, yad baxışlar kimi qəbul edir. Əsərdəki Nadirbəy-Turxanbəy xətti cəmiyyətdə yenilik və köhnəlik arasında gedən proseslərin çətinliklərini bütün təbiiliyi ilə təqdim edir. Atası Turxanbəyə əks mövqedə dayanan, məhəbbəti, sədaqəti hər şeydən uca tutan oğlu Cəmilin saf romantik düşüncələri ilə müqayisədə də sərvət əsiri olan Turxanbəy miskin görünür. Ər evində özünü dustaq sayan, sərvət içində nisgilli tale yaşayan Maralın ərinin gənc qohumu Arslanbəyə olan təmiz sevgisi də ona səadət deyil, fəlakət gətirir.

Arslanbəyə olan münasibətindən xəbər tutan Turxanbəyin Maralı vəhşicəsinə öldürməsi həmin cəmiyyətdə azad sevgiyə, saf mənəviyyata yer olmadığı fikrini əsaslandırmağa xidmət edir. Lakin Cavid Cəmillə Humay arasındakı qarşılıqlı məhəbbətə rəğbətini ifadə etməklə yeniliyin köhnəlik üzərində qələbə çalacağına ümid və inam duyğuları aşılaya bilir.

Bakı mətbəə işçilərinin həyatından bəhs edən “Şeyda” (1916) pyesində çətin, ağır həyat tərzinin və azadlıq düşüncəsinin təqdimi ön mövqeyə çəkilmişdir. Digər dram əsərlərindən fərqli olaraq Cavid bu əsərdə realist, həyati məsələlərə geniş yer ayırmışdır. Pyesin ilk səhnələrində mətbəə işçisi Şeydanın azadlıq arzusu ilə çıxış etməsi, fəhlələrə öz hüquqlarını başa salması dramaturqun ictimai mübarizəsinin vəziyyəti və vəzifələri haqqındakı qənaətlərini ifadə etməsinə şərait yaradır. İnqilab ruhlu marşları fəhlələr tərəfindən oxunduğu üçün işdən qovulan, həbs edilən Şeydanın ruh düşgünlüyünə qapılması, dərvişvari həyat keçirməsi mübarizənin axıra çatdırılmasına imkan verməyən faktor kimi dəyərləndirilir. Başına min bir müsibətlər gətirilən, qardaşı vərəm xəstəliyindən ölən, ağır iş şəraitində qolunun birini itirən, əslində meydanda tək qalan Qara Musanm intiqam hisləri də cəmiyyəti irəliyə apara bilmir. Bütövlükdə “Şeyda” pyesi üsyankar çıxışlar etməsinə baxmayaraq, real mübarizə yollarını tapa bilməyən insanların faciəsini ümumiləşdirir.

Hüseyn Cavidin “Şeyx Sənan” mənzum faciəsi geniş mənada Azərbaycan dramaturgiyasının şah əsərlərindən biridir. Bu əsər Cavidin romantik dramlarının zirvəsində dayanır. “Şeyx Sənan” mənzum faciəsi (1914) dini-əfsanəvi şəxsiyyət olan Sənanın məhəbbət macərası əsasında insanm mənəvi ucalığı haqqında yazılmış dramatik üvertura təsiri bağışlayır. Cavid bu əsərində əsl eşqin dini etiqad üzərindəki təntənəsini, bütün buxovları dağıtmaq qüdrətini nümayiş etdirmişdir. Pyesdə

müsəlmanlar, müridlər, möminlər mühitində hamıdan ucada dayanan Sənan baxışlarda gürcü qızı Xumara olan sevgisindən sonra yaranan dəyişikliklərin timsalında bütövlükdə insanın dəyişməsi prosesi dolğun şəkildə canlandırılır. Bu vaxtadək müqəddəs məbədgahlara və ziyarətgahlara səcdə edən Şeyx Sənan bundan sonra ülvi, uca eşqin böyüklüyünə inam bəsləyir. Şeyxin timsalında Cavid eşq, yoxsa etiqad, möminlik və ya gerçəklik sualları əsasında qurduğu süjet, yaratdığı dramatik münaqişə vasitəsilə insanın həqiqət axtarıcılığı, məhəbbəti etiqad səviyyəsinə yüksəltmək səyləri ilə ucala biləcəyinin mümkünlüyünü isbat etmişdir. Əsərdə Sənanın dilindən deyilmiş aşağıdakı misralar da bunu bir daha təsdiq edir:

Kim ki, eşq atəşilə oldu hədər,
Onu yandırmaz öylə atəşlər.
Bəni öldürsələr də bən yaşarım,
Tərk edib xəlqi xaliqə qoşarım.
Əbədiyyət bənim məzarımdır,
Çünki sultani-eşq yarımdır.
Eşq üçün can nisan edən ərlər,
Əbədi bir həyat içində gülər.

"Uçurum" faciəsi (1919) ilə Hüseyn Cavid yaradıcılığının birinci mərhələsi başa çatır. Mövzusu Türkiyə həyatından alınmış bu əsərdə ədib süni avropalaşmanın, yad təsirlərin milli mənəviyyatla uzlaşmayan eybəcərliklərini əks etdirmişdir.

Sovet hakimiyyəti illərində yazılmış "Afət" (1922) faciəsində kübar cəmiyyətinin meşşan əxlaqının mənəvi puçluğu açılıb göstərilmişdir. Afətin doktor Qaratayın yalan vədlərinə aldanaraq, kobud, qaba mənəviyyatca kasıb olan əri Özdəmiri öldürməsi, daha sonra isə özünü məhv etməsi həmin dairənin faciəsi kimi ümumiləşdirilir.

Hüseyn Cavidin təkcə yaradıcılığında yox, həm də şəxsi taleyində "Peyğəmbər" və "Topal Teymur" dramlarının

özünəməxsus yeri vardır. Əvvəla, hər iki əsərdə Cavid ilk dəfə idi ki, tarixi şəxsiyyətə və tarixdən alınmış hadisələrə müraciət etmişdi. Ikincisi isə böyük ədib tarixi mövzuya müasir mövqedən yanaşmışdı ki, bu da dövrün ədəbi tənqidi tərəfindən bir çox hallarda mövcud cəmiyyətlə bağlı yozulduğundan Hüseyn Cavid üçün müəyyən çətinliklərə səbəb olmuşdu. Cavid əfəndi həm də Teymurləng kimi bir fatehi və Məhəmməd peyğəmbəri ideallaşdırmaqda günahlandırılmışdı. Əslində isə dramaturqun məqsədi "Topal Teymur" əsərində tiranlığı tənqid etməkdən, "Peyğəmbər"də isə insanın müqəddəslik mərtəbəsinə yüksələ bilməsindən bəhs edirdi. Hər iki əsərdə dramatik vasitələrlə yanaşı, təsvirə, təhkiyəyə də müəyyən yer verilmişdir ki, bu da həmin bədii nümunələrin səhnəyə çıxarılmasını çətinləşdirir. "Peyğəmbər" dramı isə bütövlükdə səhnə üçün nəzərdə tutulmamışdır.

"Knyaz" dramında (1929) Cavid müasirliyə daha yaxın idi: Bu baxımdan "Knyaz" faciəsi Cavidin yaradıcılığındakı yeni əhvali-ruhiyyəni əks etdirən əsər kimi ciddi maraq doğurur. Xoş güzəran keçirən Knyazın zorla özünə arvad etdiyi kəndli qızı Casmenin onların qapısında qulluqçuluq edən Marqonun oğlu bolşevik Antonu seçməsi və keşməkeşli hadisələrdən sonra ona qovuşması Cavidin yaradıcılığında möhkəm yer tutan azad sevginin və pak mənəviyyatm təntənəsi motivinin yeni şəraitdə canlandırılmasına xidmət etmişdir. Dramaturq gurlayan inqilab dalğalarından xoflanıb Avropaya qaçan knyazın və onun ailəsinin faciəsini də məharətlə ümumiləşdirmişdir.

Görkəmli İran şairi Əbülqasım Firdovsinin anadan olmasının min illik yubileyi münasibətilə keçirilən müsabiqədə iştirak edən Hüseyn Cavid 1932-ci ildə "Səyavuş" faciəsini yazıb tamamlamışdır. Əsər Firdovsinin "Şahnamə" dastanının motivləri əsasında qələmə alınmışdır. Lakin Cavid böyük Firdovsini təkrar etməmiş, İran-Turan qarşıdurmasının

təsvirindən yaranmış “Şahnamə” dən fərqli olaraq insanların, münasibətlərin yaxınlaşdırılması yollarındakı maneələrin aradan qaldırlmasından söz açmışdı.

“Xəyyam” dramında Cavid böyük şair və mütəfəkkir Ömər Xəyyamın simasında dövrünün fövqünə yüksələ bilən bir romantik qəhrəmanı canlandırmışdır. Xəyyam ayıq şübhələri və həyat eşqi Cavidə sənətkar və cəmiyyət probleminə münasibətini ifadə etmək üçün münasib şərait yaratmışdır. Böyük türk hökmdarı Alp Arslanm və onun oğlu Məlikşahm elmi-ədəbi fəaliyyət üçün yaratdığı münbit mühitin Xəyyam kimi sənətkarlar yetişdirə biləcəyini vurğulayan müəllif sanki məntiqi mənada yeni qurulmuş sovet dövrlərində bütün bunları tapa bilmədiyini vurğulamışdı. Qanlı-qadalı repressiya rejiminin başlanması ərəfəsində irəli sürülən bu ideya xeyirlə şərin əzəli-əbədi mübarizəsinin yeni şəraitdəki əks-sədası kimi səslənirdi.

Azərbaycan teatrlarında Hüseyn Cavidin dram əsərləri böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Respublikamızda özünəməxsus prinsiplərə malik Cavid teatrı mövcuddur. Cavidin romantik mənzum dramaturgiyası milli mədəniyyətimizin inkişafına böyük töhfə vermişdir. Rejissorların, aktyorların bütöv bir nəsli Cavid teatrı əsasında yetişib formalaşmışdır.

*Tədbirin sonunda Hüseyn Cavidin əsərlərindən səhnələr verilir:*

Böyük şair Hüseyn Cavidin yubileyi ilə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də **“Əsrin şairi”** adlı *“dəyirmi masadır”* dır. Dəyirmi masa yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasdında keçirilə bilər. Tədbirdə ədəbiyyat müəllimləri, H.Cavidin yaradıcılığı ilə yaxından tanış olan tədqiqatçılar, alimlər və dramaturqun yaradıcılığını sevən oxucular dəvət olunur. Kitabxanaçı dəyirmi masa keçirərkən oxuculara dahi mütəfəkkür şairin özü və əsərləri haqqında məlumat verir:

*Kitabxanaçı:* Azərbaycanın dünyaya bəxş etdiyi dahilər çoxdur. Onların arasında Hüseyn Cavidin özünəməxsus və əlçatmaz yeri var. Bir çox dahilərimiz kimi, Hüseyn Cavidin taleyi də məşəqqətli və əzablı bir tale olub. Amma o əyilməyib, sınmayıb, əqidəsindən dönməyib. Bu baxımdan müdrik Sokratla Cavidin taleləri arasında çox qəribə bir oxşarlıq var. Hər ikisinin insanlara yaşadıqları dövrün ədalətsizlik və eybəcərliklərindən, rəzilliklərindən qurtarmaq yollarını sözlə göstərmək arzuları onların həqiqi mənada şəhid olmalarına gətirib çıxardı.

Cavidin dilində söz aliləşdi,
Ali sözlər ilə dil aliləşdi.
Dilinin yolunda canından keçdi,
Dilin şəhidinə sayğılar sonsuz.

*Vaqif Abbasov*

Çox təəssüf ki, XX əsrin ədəbiyyatşünasları 1930-1950-ci illərdə Cavid zirvəsini görmək, etiraf etmək istəmədilər. Keçən əsrin 60-cı illərində Cavidin adı məktəb proqramlarında da yox idi. Amma zamanı çatanda tarix hər şeyi öz yerinə qaytarır, sanki özünün hər şeyi yaşanmış ədalətsiz bir dövrü üçün bəşəriyyətdən üzrxahlıq diləyir. Hər halda, qoca tarixin zaman-zaman təkrarlanan bu "səhvi" "sivil" dünyanı düşündürməli, qədirbilməzlikdən, qəddarlıqdan, müqəddəs insanlar olan dahi və müdrik söz sahiblərinə qarşı, hətta eyhamlardan da çəkindirmək üçün bir dərs olmalıdır. Acı, ağır, amma həqiqətə söykənən Böyük Tarix Dərsi!

*I məruzəçi:* Bildiyimiz kimi Azərbaycan tarixinin XIX-XX əsrləri çox mürəkkəb dövrdür. Bu dövrdə dünya miqyasında içtimai-siyasi fikir toqquşmaları baş vermiş, epoxalar, içtimai-iqtisadi formasiyalar bir-birini əvəzləmiş və bütün bunlar nəhəng qanlı inqilablarla müşayiət olunmuşdur. Dünyada baş verən bu hadisələr dünyanın əhəmiyyətli parçası olan Azərbaycandan da yan ötməmiş, bütün bu mübarizələr

xalqımızın tarixində də özünə yer almışdır. Ədəbi-fəlsəfi fikir tariximizə  diqqət yetirdikdə görürük ki, Əlibəy Hüseynzadə, Mirzə Cəlil, Sabir, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, o cümlədən Hüseyn Cavid və başqaları müxtəlif ədəbi, siyasi, məfkurəvi cərəyanları təmsil etmişlər. Vaxtılə fikir meydanlarında qarşı-qarşıya bu nəhənglərin qoyub getdiyi irsə bu gün nəzər saldıqda aydın şəkildə görürük ki, həmin dövrün adları çəkilən və çəkilməyən nümayəndələri bütün varlığı ilə Azərbaycan xalqına bağlı olmuş, xalqımızın xoş gələcəyi uğrunda çarpışmışlar. Hüseyn Cavid haqqında çox yazılıb. Tədqiqatçılarımız onun poeziyasının dərinliklərinə baş vurub, professor Kamran Əliyevin təbiri ilə desək, “Cavid möcüzəsi” nin sirlərini açmağa çalışıblar. Maraqlıdır ki, bu poeziyanın cazibəsi onun sirlərinə vaqif olduqca azalmaq əvəzinə, öz cazibədarlığını daha da artırır. Biz ona görə də belə hesab edirik ki, “Cavid möcüzəsi”  tədqiqatçılarımızı hələ bundan sonra daha çox düşündürəcək və bu barədə çoxlu araşdırmalar meydana gələcəkdir. XX əsr Azərbaycan ədəbiyyatının zirvəsində dayanan Hüseyn Cavid ədəbi-bədii-estetik fikir tariximizdə adı qızıl hərflərlə yazılan, sözlə möhtəşəm abidə yaradanlardandır. Yaşadığı üç ölkədə şahidi olduğu hadisələrin ümumiləşmiş bədii əksini romantik şəkildə yaradan sənətkar az müddət içərisində şöhrətin ən yüksək zirvəsinə çatdı. Əsərləri tamaşaya qoyuldu, dillər əzbəri oldu. 1910-cu ildə yazdığı birpərdəli “Ana” dramının məramı “Mənim tanrım gözəllikdir, sevgidir” ideyası ilə səsləşir. Oğlunun qatilini lənətləyən ana düşmənini sağ buraxır, onu  xilas olmasına kömək edir. Çünki ana qəlbi sevgi və mərhəmətlə doludur. Övlad itkisindən nə qədər sarsılsa da, intiqamı taleyin ixtiyarına buraxır, zamana öz böyük ürəyinin hökmü ilə meydan oxuyur.

*II məruzəçi:* Dünya yaranandan üzü bu yana Xeyirlə Şərin mübarizəsi, dövrün diqtəsi ilə fəlakətlərin böyüyüb ümumbəşəri faciəyə çevrilməsi Cavid əsərlərinin mərkəzində durur. “Maral”, “Şeyx Sənan”, “Afət”, “Şeyda”, “İblis”, “Peyğəmbər”, “Topal Temur”, “Səyavuş”, “Knyaz”,“Xəyyam” kimi əsərlərində böyük eşq, amallarla yaşayan insanların fəlakətləri göstərilir. Bu fəlakətlərin səbəbkarı “İblis” adı ilə damğalanır. “Şeyx Sənan” əsərinin qəhrəmanı Şeyx Sənan başqa bir dindən olan qadına vurulur. Bir vaxt mənsub olduğu dinin ehkamlarına qul olmasına baxmayaraq, məhəbbəti yolunda haram buyurulan donuzları otarmağa belə razı olur. Cəmiyyət, insanlar önündə misgin görünən qəhrəman fədai bir aşiqə çevrilir və bu yolda canını fəda edir. “Topal Temur” əsərində də qardaş qırğını törədən bəşəriyyətə düşmən kəsilənlərə Cavid dərs verməyə çalışır. Dramın sonunda Teymurun öz dili ilə “Cahangirləri” ifşa edir. “Əgər dünyanın zərrə qədər dəyəri olsaydı yığın-yığın insanlara, ucu-bucağı yox məmləkətlərə sənin kimi bir kor, mənim kimi bir topal müsəllət olmazdı”-deyir. Hüseyn Cavid keçdiyi həyat yolu, təhsili, gördükləri, təhsil aldığı insanların həyata baxışı onun düşünmə tərzinin, həyata münasibətinin formalaşmasında mühüm rol olmuşdur. Üstəlik dəyişən, dəyişdirilən, yeni dünya, böyük dövlətlərin maraqları, iblisləşən zaman ona “İblis” əsərini yazırdı. Haqq-ədalət axtaran, humanizm tərəfdadı olan insanlar fəlakət törədənlərə qarşı mübarizə apararkən hər biri çevrilib qatil olurlar. Belə məqamda da İblis peyda olur. Sonra onun monoloqu həmin dövrü bütün dəhşət və vəhşəti ilə çox aydın şəkildə ifadə edir. Həmin dövrdə Avropa və Asiyada inkişaf edən dövlətlərin maraqları toqquşurdu. Avropa Türkiyə kimi qədim dövləti yer üzərindən silmək istəyirdi. Rusiya dünyanı işğal etmək istəyirdi. Şərq ölkələri bir-biri ilə düşmən vəziyyətdə idi. İnsan və insan həyatından ucuz daha hec nə yox idi.

Fironlar qədim Azərbaycana da sağalmaz yaralarını vurdular. Elmin, dövlətçiliyin bütün sahələrində fəaliyyət göstərənləri mərhələ-mərhələ məhv etdilər. Hüseyn Cavid bir sinif kimi dövlətlərin məhv edilməsinin əlehinə çıxırdı. "Mən zənginləri məhv etmək yox, zəngin olmayanları zənginləşdirmək tərafdarıyam" - deyirdi. 1937-ci ilin soyqırımı qasırğası millətin başqa ziyalıları kimi, Hüseyn Cavidin də başı üzərində əsdi. Özünə və ailəsinə fəlakət gətirdi. İnsanları heyrətə gətirən əsərləri qadağan olunub məhv edildi. "Atilla", "Çingiz", "Şəhla", "Koroğlu", "İblisin ilhamı", "Telli saz" adlı əsərləri onun bioqrafiyasından silindi. Uzun illərdən sonra Hüseyn Cavid xalqına qaytarıldı. Uzaq Sibir çöllərində dəfn olunan böyük şairi ulu öndərimiz Heydər Əliyev doğma yurduna qaytardı. Hər birimiz Hüseyn Cavid kimi dahi sənətkarların ədəbi irsini hər nəsl olduğu kimi mənimsətməliyik. Bəşəriyyətə ədəbi günahlarımızı tanıtmaq üçün əvvəlcə onları özümüz tanıyıb dərk etməliyik.

*III məruzəçi:* Hüseyn Cavid dünya şöhrətli şair-dramaturq olmaqla yanaşı, həm də görkəmli filosof-mütəfəkkirdir. Onun içtimai-siyasi, hüquqi görüşləri Azərbaycanda, yeni sosial-iqtisadi münasibətlərin formalaşdığı, cəmiyyətin sosial strukturunda ciddi dəyişikliklərin baş verdiyi, kapitalist münasibətlərin əsas daşıyıcıları olan burjuaziya və fəhlə sinfinin təşəkkül tapdığı bir dövrdə formalaşmağa başlamışdı. Bu baxımdan onun içtimai görüşlərində yaşadığı dövrün xarakterini, inkişaf meyillərini, ziddiyyətlərini əks etdirən fikirlər mühüm yer tutur. Yaşadığı mühiti dərindən öyrənən mütəfəkkir cəmiyyətin sinfi təbəqələşməsinin səbəblərini, içtimai münasibətlər sistemində hər bir sinfin yerini və mövqeyini dərk etməyə çalışmışdır. Hüseyn Cavidin fikrincə, içtimai inkişaf irəliyə doğru yüksələn xətlə gedir, elmin, maarifin, texnikanın uğurları tarixi inkişafı şərtləndirir.

Mütəfəkkirin gəldiyi qənaət bundan ibarətdir ki, insan cəmiyyəti təbii və qanunauyğun olaraq irəliyə doğru tərəqqi edir. Hüseyn Cavid Azərbaycan ədəbiyyatı tarixində xüsusi mövqeyi olan, milli şeirin ən yaxşı ənənələrini inkişaf etdirən, zənginləşdirən qüdrətli söz ustadlarından biridir. Cavid gənc yaşlarından şeir yazmağa başlasa da, məhsuldar yaradıcılığı 26 illik dövrü əhatə edir. Cavid sənəti bədii forma, janr baxımından çox zəngin, əlvan olmuşdur. O, yüksək sənətkarlıqla yazdığı lirik şeirlərlə, poemalarla yanaşı, Azərbaycan səhnəsinə faciə və dramlardan ibarət orijinal əsərlər vermişdir. Cavid dramaturgiyası xarakterlər dramaturgiyası olmuşdur. Bu baxımdan onun dram sənətini dünyanın ən böyük dramaturqlarının yaradıcılığı ilə müqayisə etmək olar. Hüseyn Cavid çox ölkələr gəzmiş, çox görmüş, ömrünün 14 ilini vətəndən kənarda keçirmişdir. Şair yaxın ülfətdə olduğu hər xalqın həyatından dəyərli əsərlər yazmışdır. Onun yaradıcılıq idealı konkret milli məzmun, milli kolorit daşımaqla yanaşı, həm də ümumbəşəri mahiyyətdədir və zamanla bağlı ziddiyyətlər daxilində büllurlaşma, aydınlaşma, əsərin qabaqcıl ideyalarına yaxınlaşma prosesində olmuşdur.

*VI məruzəçi:* Cavidin min-bir ruhla mədəni inqilab uğrunda apardığı mübarizələri kütlələrin maariflənməsinə, Azərbaycan qadınının savadlanmasına və cəmiyyət işlərinə qoşulmasına, zəhmətkeş xalqın vətənin həqiqi sahibi olmasına xidmət edir. Şair Berlində ikən yazdığı "Kömür mədənində" şeirində fəhlə sinfinin atəşin müdafiəçisi kimi çıxış etməsi, Qərb burjuaziyasının yeni müharibə planlarını ifşa etməsi onun siyasi-içtimai görüşlərinin inkişafında əlamətdar hadisə idi. "Xəyyam" "Səyavuş" son dramları Cavidin tarixə, tarixi şəxsiyyətlərə baxışında da ciddi bir dönüş oldu. Tarix Cavidin nəzərində xeyirlə şərin, müdrikliklə cəhalətin mübarizəsi idi. Cavid "İblisin intiqamı" dramında faşizmi bəşəriyyəti böyük fəlakətlərə sürükləyəcək "iblis siyasəti" adlandırdı. Hüseyn

Cavidi daim narahat edən, kədərləndirən amillərdən biri də Azərbaycanın cənubunda çoxmilyonlu azərbaycanlıların "şahənşahlıq" üsul-idarəsi, Şərq despotizmi, satqın fars feodallarının əsarəti altında əzab çəkməsi, vətəndə ikən vətənsiz yaşaması, ən adi insan hüquqlarından və beynəlxalq hüquqlardan məhrum edilməsi idi. H.Cavid Azərbaycanın parçalanması, bir ürəyin iki yerə bölünməsi ilə barışmırdı. Şair bu mövzuya "Telli saz" dramı və "Kor Neyzəm" kimi mənzum əsərlər həsr etmişdir.

*Tədbirin sonunda iştirakçılar Hüseyn Cavidin "Xəyyam" adlı dramını səhnələşdirdilər.*

Hüseyn Cavidin yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri *"Hər həqiqətdə çırpınır bir nur, Hər həqiqətdə bir xəyal uyuyur"* adlı **şeir müsabiqəsi** ola bilər. Kitabxanaçı öncə şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə başlayır. O, ilk olaraq Hüseyn Cavidin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından və poeziyasından qısa məlumat verir. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır.

*Birinci işrirakçı "Şərq qadını" adlı şeirini intonasiya ilə deyir:*

Bən nə idim? Şərqin əzilmiş qadını!
Bən nə idim? Uf onu heç sormayınız!
Varlığım bir quru heç!
Keçmişin ən qaba, ən vicdansız,
Kirli dırnaqları qəhr etdi bəni.
Görmədim gün işığı;
Doğduğum gündən-əvət-tarixin
Paslı zəncirləri inlətdi bəni.
Hər tərəfdən qara bir mevhumat

Pərdələr çəkdi həmən gözlərimə...
Qoparırkən fəryad,
Etdi qanun ilə din istehza
Bənim öksüzcə qırıq sözlərimə...

*İkinci iştirakçı "Bənim tanrım" adlı şeirini demək üçün səhnəyəyə yaxınlaşır.*

Hər qulun cihanda bir pənahı var,
Hər əhli-halın bir qibləgahı var,
Hər kəsin bir eşqi, bir ilahı var,
Bənim tanrım gözəllikdir, sevgidir.

Həzz etmədim firqədən, cəmiyyətdən,
Zevq alamam hərbdən, siyasətdən,
Bir şey duymam fəlsəfədən, hikmətdən,
Bənim tanrım gözəllikdir, sevgidir.

Gözəl sevimlidir, cəllad olsa da;
Sevgi xoşdur, sonu fəryad olsa da;
Uğrunda bənliyim bərbad olsa da,
Son dildarım gözəllikdir, sevgidir.

Gözəlsiz bir gülşən zindana bənzər,
Sevgisiz bir başda əqrəblər gəzər,
Nə görsəm, hanki bəzmə etsəm güzər,
Həp duyduğum gözəllikdir, sevgidir.

*Uçüncü  iştirakçı "Qoca bir türkün vəsiyyəti" adlı şeirini deməyə başlayır.*

Yavrularım! Ey ömrümü şənləndirən, güldürən,
Alnı açıq oğullarım, gözəl, yosma qızlarım,
Bir qayəsiz uçurum var, ayrılmıyor önümdən,
Ömrüm vəfa etməz bana, bəlkə pək az yaşarım.

Artıq bana dar gəliyor həp şu əngin üfüqlər,
Sanki ruhum qanatlanıb şimdi pərran   olacaq.
Qarşımızda yanğın kibi ğörünən al şəfəqlər,
Ehtimal ki, yarınkigün bəni sönmüş bulacaq.

Əcəl güclü, bən gücsüzüm, kimsə ondan qurtulamaz,
Toplaşınız, vardır, sizə qaç sözüm, dinləyin.
Getməliyəm,vəsiyyətsiz ölsəm ruhum şad olmaz,
Qulaq verin sözlərimə, birər-birər bəlləyin...

*Dördüncü iştirakçı "Sevinmə, gülmə, quzum" adlı şeirini qiraətli bir şəkildə deməyə başlayır.*

Sevinmə, gülmə, quzum, kimsənin fəlakətinə,
Bu hal, əvət, eyi bir şey deyil, sevinmə saqın!
Sevinmə başqasının hali-pürsəfalətinə,
Toqunma qəlbinə bikəslərin, zavallıların.

İnan ki, bir acı söz, bir baqış, bir incə gülüş,
Kədərli, sıtmalı bir qəlbi tırmalar, yaralar,
O qəlb avusa da, aldanma, incinib küsmüş,
Sağalmaz iştə o, yıllar keçər də həp sızlar.

Toqunma, ruhum! Əvət, kinlidir fələk, bir gün
Qızar, həmən gücənib intiqam alır səndən.
Bu gün gülən yarın ağlar, saqın öyünmə, düşün!
Düşün də munis ol! İncitmə, qırma kimsəyi sən!..

Böyük şair Hüseyn Cavidin yaradıcılığını oxuculara tanıtmaq və şair qələmini sevdirmək üçün kitabxanada bir neçə tədbir keçirilir. Bu tədbirlərdən biri də *"Cavid bir günəş idi"* adı altında keçirilən **"bibloqrafik icmal"** dır. Tədbirə Cavidin yaradıcılığı ilə tanış olan, onun kitablarını mütailə edən oxucular və b. qonaqlar dəvət olunur. İlk olaraq kitabxanaçı qonaqlara qəlbi vətən üçün döyünən şair Hüseyn Cavid haqqında məlumat verir:

*Kitabxanaçı:* Mütəfəkkir şair, görkəmli dramaturq Hüseyn Cavid Azərbaycan ədəbiyyatı tarixində orijinal ədəbi simalardan biridir. Minillik Azərbaycan ədəbiyyatının növbəti inkişaf mərhələsi sayılan XX əsr Azərbaycan romantizmi hamıdan çox Hüseyn Cavidin adı ilə bağlıdır. "Şeyx Sənan" və "İblis", "Xəyyam" və "Səyavuş" bizim dramaturgiyamızda romantizmin bütün problematikliyi, ideya və mənzum xüsusiyyətləri ilə təzahür etdiyi əsərlərdir. Öz yaradıcılığı ilə Hüseyn Cavid Azərbaycan dramaturgiyasının mövzu sərhəddini genişləndirir, tragik xarakterin, romantik qəhrəmanın, dramatik konflikt və kolliziyaların yeni tiplərini yaradır, qəhrəmanı qadın olan ilk Azərbaycan faciəsini qələmə alır, onu humanist, nəcib və bəşəri ideyalarla daha zənginləşdirir. Hüseyn Cavid bizim dramatik poeziyada qüvvətli bir faciənəvis, mənzum və romantik dramın yaradıcısı kimi unikal və şərəfli bir yer tutur. H. Cavid orijinal bir dramaturq kimi ədəbiyyat aləmində 1910-1912-ci illərdən tanınır. Hələ 1910-cu ildə yazdığı bir pərdəli ilk "Ana" səhnəciyi ilə o, gələcəkdə ustad faciənəvis olacağını vəd edirdi. Bu əsər öz maraqlı tragik situasiyası ilə diqqətləri

cəlb edir: böyük ürəkli ana öz balasının hələ isti meyiti üzərindən onun namərd qanlısına xilas yolu göstərir. Bəşəri analıq məhəbbəti şəxsi qisas duyğusuna qalib gəlir. Bu cəhət, insan ləyaqətinə inam, yüksək, ülvi duyğuların tərənnümü, sonralar Cavidin bütün əsərlərinin əsas məziyyətlərindən biri kimi meydana çıxır. 1913-cü ildə Hüseyn Cavidin "Keçmiş günlər" adlı ilk şeirlər məcmuəsi nəşr edilir. Bu lirik və romantik şeirlərdə şair müasir içtimai mühiti tənqid edir, köhnələn etiqadlara, din və fəlsəfələrə qarşı çıxır, eyni zamanda, fərdin arzuları ilə cəmiyyətin tələbləri arasındakı ziddiyyətləri açıb göstərməyi bir mütəfəkkir sənətkar, humanist şair kimi qarşıya qoyur. H.Cavidin mövcud həyatdan narazılığı, şairin narahat ruhu, ideya axtarışları onun "Bahar şəbnəmləri" adlı ikinci kitabında toplanmış şeirlərində hiss olunur. H.Cavid böyük dramaturq olmazdan öncə böyük şair olmuş və lirik-fəlsəfi yaradıcılığını bütün ömrü boyu davam etdirmişdir. Onun şeirlərini oxuduqca sanki başlanğıcda sakit axan, qıjıldayan, daşlardan töküldükcə isə etirazlı bir nərə çəkən dağ çeşməsinin, dağ çayının səsini eşidirsən. Elə buna görədir ki, H.Cavidin şeir dili səmimi, saf insan duyğularının tərənnümündə nə qədər həzin, kövrək, lirikdirsə, insanlara zülm və müsibət gətirən şər qüvvələrə, heyvani instinklərə tabe olub öz həmcinslərini zülmət və cəhalətdə saxlayan riyakarlara qarşı mübarizədə o qədər kəskin, amansız, qəti və hayqırtılıdır. Bu baxımdan Hüseyn Cavidin poeziyasında romantika ilə realizmin heyrətamiz bir vəhdətini görürük. Şair xeyirin tənəsinə nə qədər işıqlı romantik xəyallar bəsləyirsə, şərin məhvi üçün də o qədər səbirsiz, acıqlı tədbirlər irəli sürür. Hüseyn Cavid bir şair kimi orijinaldır. Təkraredilməzdir, yalnız özünə, öz sənətinə xas olan poetik ifadə və vasitələrin müəllifi kimi çox uğurlu bir dəsti-xətti vardır. Cavidin şeir yaradıcılığındakı romantik bədbinlik, ruh

düşkünlüyü və ümidsizlik zaman keçdikcə mübariz bir ovqata, nizamivari bir "inqilabçılığa" çevrilir.

*Kitabxanaçının çıxışından sonra həmin kitabxananın biblioqrafı kitablar haqqında məlumata başlayır. O, ilk olaraq 5 cildlik "H. Cavidin əsərləri" kitabı haqqında məlumat verir:*

*(I kitab)* Çoxəsirlik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən, zənginləşdirən qüdrətli söz ustası Hüseyn Cavid öz yaradıcılığı ilə, dərin hikmətli və fəlsəfi poeziyası, təkrarsız dramaturji əsərləri ilə Azərbaycanda milli şüurun intibahına xidmət göstərmişdir. 1937-ci il repressiyalarının qurbanı olmuş mütəfəkkirin, anadan olmasının 100 illiyi ilə bağlı hazırlıqların getdiyi dövrdə, Heydər Əliyevin şəxsi təşəbbüsü ilə məzarının Sibirdə tapılıb nəşinin Azərbaycana gətirilməsi, təsadüfü deyil ki, bir çox dünya tarixçiləri tərəfindən ölkədəki müstəqillik arzularının və milli-azadlıq hərakatının başlanğıc nöqtəsi kimi səciyyələndirilmişdir. Müqtədir sənətkarın yaradıcılığındakı romantik coşğunluq ilk öncə türk millətinin sabahına olan sonsuz inamdan qidalanırdı. Sənətkarın "Əsərləri" nin I cildinə "Keçmiş günlər" (Tiflis, 1913), "Bahar şəbnəmləri" (Bakı, 1917) şeirlər silsiləsi və "Azər" (1920-1937) poeması daxil edilmişdir. Bütün yaradıcılığı insanda, təbiətdə və dünyada gözəllik axtarışlarından ibarət olan mütəfəkkir şair bu şeirlərində gözəlliyin pozulan qaydalarını nizama salmaqla məşğuldur. Odur ki, söz sənətinin bu böyük rəssamını yalnız geniş fəlsəfi mənada gözəlliyi axtara-axtara və gözəlliyə salınan işığın izi ilə axıracan başa düşmək olar. Əsərlərin imlasına toxunmamış, dil və üslubunun qorunmasına çalışılmışdır.

*(II kitab)* XX yüzil bədii fikrimizin mərdlik və əyilməzlik simvoluna çevrilən şəxsiyyəti, böyük mütəfəkkir Hüseyn Cavidin nəsillərə örnək olacaq zəngin və bənzərsiz yaradıcılıq irsi zaman keçdikcə daha çox aktuallıq kəsb etməkdədir. Şair və

ədiblərimiz içərisində ən müstəsna, ən zərif və narın bir dillə yazan Cavid yaradıcılığa poeziya ilə başlasa da, Azərbaycan ədəbiyyatı tarixində daha çox dramaturq kimi şöhrət tapmış, dramatik növün ağırlığı ilə müşayiət olunan ədəbi fəaliyyətində fəlsəfi ruhun hakim kəsildiyi poeziyasından gələn çalarların aparıcı olduğu aşkar duyulmaqdadır; onun dram əsərlərinin mühüm bir qisminin mənzum forma daşıması bununla şərtlənir. Ədibin "Əsəri" nin II cildinə "Ana", "Maral" və "Şeyda" pyesləri ilə yanaşı, Azərbaycan ədəbiyyatının ilk mənzum dramlarından "Şeyx Sənan", "Uçurum" faciələri daxil edilmişdir. Böyük sənətkarın öz əsərlərinin sonunda etdiyi "İmlasına toxunulmalı!" qeydinə əməl olunmuş, mətnlərin dil və üslubunun qorunulmasına çalışılmışdır.

*(III kitab)* Böyük Azərbaycan mütəfəkkiri, məşhur və xariqüladə pyeslər müəllifi Hüseyn Cavidin "Əsərləri" nin bu cildinə müqtədir sənətkarın, səhnəmizin şah əsərlərindən olub, dünya ədəbiyyatındakı əfsanəvi İblis surətinin çox böyük ustalıqla canlandırıldığı "İblis" faciəsi mövzusu İstanbul həyatından alınmış "Afət" i Peyğəmbərin dahiyanə obrazının öz parlaq əksini tapdığı "Peyğəmbər" i və hərb demonunun surətinin yaradıldığı "Topal Teymur" daxil edilmişdir. Cavid yaşadığı cəmiyyətin, mənsub olduğu soyun və bütövlükdə insanlığın problemlərini əks etdirməyə can atdığı üçün onun mövzuca və qaldırılan problem baxımından heç biri digərini təkrarlamayan bu əsərlərində də dünyanın mahiyyətinə varılır, həyatın, xilqətin fəlsəfi dərkinə çalışılır. Əsərlərin imlasına toxunulmayaraq, dil və üslubunun qorunmasına çalışılmışdır.

*(IV kitab)* Hüseyn Cavid sənətimiz tarixinə əlvan, romantik səhifələr yazmış şair və dramaturqdur. Azərbaycan ədəbiyyatında mənzum pyeslərin yaradıcısı olan monumental-romantik sənətkarın əsərləri 1920-30-cu illərdə səhnəmizin inkişafında əvəzsiz rol oynamış, neçə-neçə faciə, dram

aktyorumuz məhz bu əsərlərlə yetişmişdir. Öz fəlsəfi, poetik və estetik konspesiyalarıyla "Cavid teatrı" hətta Cavidin əsərləri səhnədə oynanmadığı dövrlərdə belə öz təsir gücünü zərrəcə itirmədən yaşamışdır. Mütəfəkkir sənətkarın "Əsərləri" nin bu cildinə "Knyaz" (1928-1929) və "Səyavuş" (1933) mənzum faciələri daxil edilmişdir. İnqilabi mövzuda yazılmış "Knyaz" dramının ideyası Gürcüstanda sovet quruluşunun bərqərar olduğu dövrdən və həmin ərəfədə baş verən hadisələrdən alınmışdır. "Səyavuş" mənzum faciəsi isə fars-tacik şairi Əbdülqasim Firdovsinin 1000 illik yubileyinə Hüseyn Cavidin hədiyyəsi idi. Faciədə qədim "Şahnamə" motivlərinə, çox geniş yayılmış və dəfələrlə işlənmiş "Səyavuş" dastanına tamamilə yeni, müasir mövqelərdən yanaşan Cavid tarixi keçmişdə də daha çox milli istiqlalla bağlı motivlər axtarır.

*(V kitab)* Ədəbiyyatımızın ən böyük klassiklərindən biri kimi şöhrətlənmiş Hüseyn Cavid qələmə aldığı faciələrdə Şərq taleyinin müxtəlif ciddi problemlərini qaldırmış, türkçülük ideyalarını təbliğ etmiş, ümumbəşəri məsələləri yüksək humanizm mövqeyindən işıqlandırmışdır. "Əsərləri" nin bu son cildinə sənətkarın "Xəyyam" (1935) və "İblisin intiqamı" (1936-1937) dramları daxil edilmişdir. Bəlkə də ən poetik, ən şairanə pyesi olan "Xəyyam" da Cavid Şərqin qədim və ziddiyətli keçmişini artıq bir şair-filosofun timsalında tərənnüm edir. Əsrinə sığmayan şairin həyat mübarizəsi əsərin əsas sujet xəttini təşkil edir. Hüseyn Cavidin bütövlükdə bədii bioqrafiyasından qırmızı xətt kimi keçən İblis ideyası və obrazı öz qanunauyğun fəlsəfi-estetik və bədii yekununu dramaturqun son əsərində-faşizm əleyhinə çevrilən, müharibə məfkurəsinin təhlilinə həsr olunan "İblisin intiqamı" nda tapır. Bu cilddə mütəfəkkir sənətkarın eləcə də məqalə və məktubları toplanmışdır.

Hüseyn Cavidin növbəti kitablarından biri də "Hüseyn Cavid. Dram əsərləri." adlı kitabıdır. Hüseyn Cavid XX əsr

Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biridir. Novator şair-dramaturqun romantik ruhu bənzərsiz pyesləri dünya söz sənətinin ən parlaq örnəyi olmaqla qlobal bəşəri duyğu və düşüncələri, dərin fəlsəfi-mənəvi ideyaları heyratamiz bir aktuallıqla əks etdirməkdədir. Azərbaycan Respublikasının Prezidentinin “Hüseyn Cavidin 125-illik yubileyinin keçirilməsi haqqında” sərəncamına uyğun olaraq Mədəniyyət və Turizm Nazirliyi tərəfindən nəşr edilən bu kitabda ölməz sənətkarın “Şeyx Sənan”, “İblis”, “Peyğəmbər”, “Topal Teymur” və “Xəyyam” əsərləri daxil edilmişdir. Ədibin öz əsərlərinin sonunda “İmlasına toxunmamalı!” qeydinə əməl olunmuş, mətnlərin dil və üslubunun qorunmasına çalışmışdır. Kitab geniş oxucu kitləsi üçün nəzərdə tutulub.

Dahi şair Hüseyn Cavidin anadan olmasının 120 illik yubileyi münasibətilə oxuculara təqdim olunan “Hüseyn Cavid-120” adlı bu kitaba müəllifin müxtəlif illərdə qələmə aldığı “Bahar şəbnəmləri” şeirlər toplusu “İblis”, “Peyğəmbər” pyesləri daxil edilmişdir. Kitabda ədibin əsərləri üzərində aparılan məqsədli sadələşdirmələr, əvvəlki nəşrlərdə yol verilmiş təhrif və yanlışlıqlar aradan qaldırılmış, dilinin, üslubunun qorunulmasına çalışılmışdır.

Hüseyn Cavidin növbəti kitablarından biri də Mustafa Çəmənlinin “Hüseyn Cavid. Dram əsərləri.” adlı kitabıdır. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Hüseyn Cavidin anadan olmasının 130 illiyi münasibətilə nəşr olunan bu kitabda dramaturqun “Ana”, “Maral”, “Şeyda”, “Uçurum”, “Afət”, “Knyaz”, “Səyavuş”, “İblisin intiqamı!” dramları toplanmışdır. Bu əsərlərdə şair-filosof lap qədimlərdən insan oğlunu düşündürən suallara cavab axtarmış və nəticədə özünün orijinal bədii-estetik konsepsiyasını yaratmışdır. Kitaba daxil edilmiş əsərlər Hüseyn Cavidin 1982-1985-ci illərdə nəşr olunmuş “Əsərləri” nin dörd cilddiyindən götürülmüşdür.

“Cavid hikməti” (seçmə aforizmlər) kitabı Hüseyn Cavid külliyyatının son beşcildlik nəşri əsasında tərtib edilmiş aforizmlər böyük mütəfəkkir şairin insanlıq, haqq, ədalət, vətən, millət, qadın, məhəbbət və ən müxtəlif insan münasibətləri haqqında müdrik sözlərini və kəlamlarını əhatə edir. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Hüseyn Cavid yaradıcılığı sovet dövründə geniş ədəbi mübahisələrə səbəb olmuş, ciddi markisist-leninçi tənqidə məruz qalmışdır. Şair bolşevik partiyasının və şura hökumətinin bədii ədəbiyyat sahəsində həyata keçirdiyi siyasəti və sovet quruluşunu qəbul etməmiş sinfi cəmiyyətdə ədəbiyyat və sənət haqqında marksist nəzəriyyəsi ilə hesablaşmamış, ona qarşı prinsipal ədəbi mövqe nümayiş etdirmişdir. Dramaturq sifariş, qanun və fərmanla əsərlər yazmaq tələbini rədd etmişdir. Heç bir tənqidçi onu öz mövqeyindən döndərə bilməmişdir. Müəllif bu monoqrafiyada ədəbiyyat və sənət haqqında marksizm-leninizm nəzəriyyəsini bədii əsərin təhlili və qiymətləndirilməsində qeyri-qənaətbəxş və nöqsanlı hesab edir, “Sinfi cəmiyyətdə incəsənət müxtəlif siniflərin intereslərini ifadə edir” fikrilə razılaşmır, bədii ədəbiyyatın sinfiliyi və partiyalılığı haqqında markisist təliminə qarşı çıxır. Monoqrafiyadan ədəbiyyatşünaslar, ali məktəblərin filologiya fakültələrinin tələbələri, cavidsevərlər yararlana bilərlər.

*Bibloqrafik icmal zamanı kitabxanaçı Hüseyn Cavidin öz kitabları ilə yanaşı digər yazarların kitabları haqqında da məlumat verə bilər.*

İsgəndər Atillanın “Əsrin şairi” adlı kitabında Hüseyn Cavidin həyatı və taleyindən bəhs olunur. Bu kitab, başda böyük Azərbaycan türk şairi Hüseyn Cavid olmaqla, sovet quruluşunun qurbanları olan və Stalinin bilavasitə rəhbərliyi altında həyata

keçirilən Azərbaycan represiyaçılarına-Azərbaycan şəhidlərinə ithaf olunur.

Yazıçının ikinci kitabı olan "Əsrin şairi" kitabında Cavid estetikası (Sənət və gözəllik dünyası) və s. söhbət açılır. Çağdaş Azərbaycan ədəbiyyatşünaslığında görkəmli şair-filosof və estetik Hüseyn Cavidin gözəllik dünyası, sənətə, həyata, dünyaya və kainata fəlsəfi estetik baxışları az araşdırılmışdır. Müəllif "Əsrin şairi" silsiləsindən çap etdirdiyi ikinci kitabında Cavid estetikasında sənət anlayışı, eşq və gözəllik, gözəllik və məhəbbət, məhəbbət və nifrət kimi estetik problemlərə nəzər salır, onun fəlsəfi düşüncələrinə ayrıca yer verir. Kitab sənətşünaslar, cavidşünaslar və ali məktəblərin tələbələri üçün nəzərdə tutulmuşdur.

"Əsrin şairi" silsiləsindən Hüseyn Cavidin mənzum dramlarının üç hissədə çap edilməsi nəzərdə tutulmuşdur. Bu hissədə böyük şair və dramaturqun "Ana", "Şeyx Sənan", "Uçurum", "İblis" mənzum dramaları nəzərdən keçirilir, müasir tələblər baxımından araşdırılır və təhlil edilir. Cavid bədii dühasına, əsərlərinin sənətkarlıq xüsusiyyətlərinə, ədəbi və teatr tənqidinə ayrıca yer verilir.

İsgəndər Əhməd oğlu Atillanın "Cavidin mənzum dramları" kitabında "Əsrin şairi" silsiləsindən Hüseyn Cavidin sovet dövründə qələmə aldığı "Peyğəmbər" və "Knyaz" mənzum dramları araşdırılır. Əsərlərin təhlil və tənqidinə yeni mövqedən yanaşılır. Tənqid tarixinə və teatr tamaşalarına ayrıca yer verilir. "Peyğəmbər" təhlil olunarkən "Qurani-Kərimdən istinad olunur. Oxucuların nəzər-diqqəti pyesin mətninə uyğun gələn surə və ayələrə cəlb edilir.

Yuxarıda adı gedən kitabın II hissəsində Əsrin şairi" silsiləsindən Hüseyn Cavidin sovet dövründə qələmə aldığı "Səyavuş" və "Xəyyam" mənzum dramları araşdırılır və təhlil edilir. Əsərlərin tənqidinə və tamaşalarına ayrıca nəzər salınır.

Şərqin böyük alimi və filosofu, İbn Sinaçı Xəyyamın keşməkeşli həyatı və fəaliyyəti tarixilik və müasirlik baxımından tədqiq edilir. Cavidin görkəmli şəxsiyyətlər haqqında və görkəmli şəxsiyyətlərin şair-dramaturq haqqında fikirlərinə ayrıca yer verilir.

İsgəndər Atillanın "İnsan ömrü bir dalğa kimi..." (Turan Cavid haqqında sənədli xatirələr) kitabında uzun illər Teatr İnstitunda (indiki Mədəniyyət və İncəsənət Universitetində) Azərbaycan teatr tarixindən dərs demiş, Cəfər Cabbarlı adına Dövlət Teatr və Muzeyində Hüseyn Cavidin ev muzeyində direktor işləmiş teatrşünas Turan Cavidin həyat və məişətinə, ömür gün yoluna nəzər salınır. Onun Cavid muzeyinin təşkili ilə bağlı rastlaşdığı böyük çətinliklər addımbaaddım izlənilir. Oxucuda görkəmli muzey işçisi və cəfakeşi haqqında dolğun təsəvvür yaradılır. Müasir dövrün bəzi böyük alim və sənətkarları barəsində Turan Cavidin fikirlərinə ayrıca yer verilir. Kitab müəllifin gündəlikləri əsasında qələmə alınmış, sənədli xatirələr təsiri bağışlayır və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Nafilə Abuzərlinin "Eşq mələyi" adlı kitabı. Bu kitaba Hüseyn Cavid haqqında yazılmış "Eşq mələyi" dramı, "Hüseyn Cavid" ədəbi-bədii kompozisiyası, eləcə də müxtəlif illərdə yazdığı şeirləri toplanmışdır.

Görkəmli alim və ədəbiyyatşünas Məsud Əlioğlu yaradıcılığında Azərbaycan ədəbiyyatında romantizmin cərəyanının görkəmli nümayəndəsi hesab edilən Hüseyn Cavid irsinə önəmli yer ayırmışdır. Müəllifin "Darıxan adamlar" toplusu bütövlükdə Hüseyn Cavid yaradıcılığının tətbiqinə həsr olunmuşdur.

Rəfael Hüseynov "Vaxtdan uca" kitabı. Bu kitabın qəhrəmanları Müslüm Maqomayev, Hüseyn Cavid, Ərtoğrol Cavid istedadlarıyla, sənətə sonsuz sevgiləriylə, solmaz

yadigarlarıyla dünənin, bu günün və sabahındırlar. Yaşadıqları illərə sığmayan bu sənətkarlar hər gələn nəsillə müasir olacaq və həmişə də zəmanəyə Vaxtın fövqündən baxacaqlar. Bu işıqlı ömürlərin ölümsüzlük sahilləri hamımıza bəllidir. Ancaq həmin ölümsüzlüyün tayında onların ümidli, arzulu, mübarizəli, sevincli, nisgilli, gerçək həyatları dayanır. Kitabdakı düşüncələrdə bu unudulmaz insanların ömür yolunun zəngin və maraqlı səhifələri vərəqlənir.

*Kitabxanada Cavid yaradıcılığını oxuculara çatdırmaq üçün yazıçının xatirəsini əziz tutmaq məqsədilə respublikamızda fəaliyyət göstərən muzeylərimizdən bəhs edən kitabların sərgisini təşkil etmək olar. Sərgi* ***"Qaranlıqda parlayan nur"*** *adlana bilər. Kitabxanaçı kitabxanaya gələn oxuculara H.Cavidin həm Bakı şəhərində, həm də Naxçıvan şəhərində yerləşən xatirə muzeyləri haqda məlumat verə bilər. Sərgidə müxtəlif kitablarla yanaşı dövri mətbuat nümunələri nümayiş olunur.Kitabxanaçı sərgi ətrafında oxucularla söhbət təşkil edir.*

Sərgi ilə maraqlanan oxuculara Salatın Əhmədlinin qələmə aldığı "Hüseyn Cavidin ev-muzeyi" kitabı haqqında məlumat verilir. Kitabda muzeyin yaranma tarixindən, oradakı eksponatlardan, muzeyə verilmiş hədiyyələrdən və Hüseyn Cavidin Naxçıvandakı ev muzeyindən bəhs edilir.

Kitabxanaçı:Sözlərimi görkəmli şəxsiyyətlərin dahi şair haqqında söylədikləri fikir və kəlamlarla başlamaq istərdim:

Hüseyn Cavid həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur. Onun yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Ümidvaram ki, Cavid ocağı xalqımızın tarixinin, ədəbi irsinin milli-mənəvi dəyərlərinin gənc nəsillə aşılanmasında misilsiz rol oynayacaqdır.

(Heydər Əliyev, Azərbaycan xalqının ümummmilli lideri)

Hüseyn Cavid Azərbaycan teatrının Şekspridir.

(Mikayıl Müşfiq, şair)
Cavidi teatrsız, teatrı Cavidsiz düşünmək olmaz.
(Cəfər Cəfərov, tarix elmləri doktoru)
Hər şeyə görə-atamı Vətən torpağına qovuşdurduğuna, əzizlərimi bir sərdabədə-Cavid məqbərəsində görüşdürdüyünə, Cavid ocağının çırağını yenidən yandırdığına görə unudulmaz Heydər Əliyevə minnətdaram.
(Turan Cavid, əməkdar mədəniyyət işçisi.)
Turan xanım Cavid irsinin ən böyük pərəstişkarlarından və təbliğatçılarından biri idi. Şairin ev-muzeyinin yaradılması, əsərlərinin ən mükəmməl nəşrinin hazırlanması bilavasitə onun adı ilə bağlıdır. Sovet dövr nəşrlərində Cavidin imlasına müdaxilə olunmuş, bir çox yerlərdə isə təhriflərə yol verilmişdir. Turan xanımın hazırladığı son beşcildlik külliyatda Cavidin ilkin imlası demək olar ki, bərpa olunmuş, böyük şair-dramaturqun hətta indiyə qədər çap olunmamış əsərləri də ilkin şəkildə oxuculara çatdırılmışdır. Bu gün Hüseyn Cavidin Ev Muzeyində Cavidin irsinin təbliği və araşdırılması, eləcə də tərcüməsi və internet vasitəsilə dünyaya yayılması yönündə mühüm işlər görülür. Turan xanımın anım günündə ev-muzeyinin rəsmi açılış mərasimi zamanı-2002-ci ilin 24 oktyabrında, yəni Cavidin 120-illik yubileyi günündə, Cavidi yenidən öz doğma xalqına qaytarmış ümummilli liderimiz Heydər Əliyevlə Turan xanımın apardığı söhbəti oxuculara təqdim edirik. Hər ikisinin ruhu şad olsun! Kitabxanaçı onların arasında olan dialoqu tamaşaçılara çatdırdıqdan sonra muzey haqqında məlumata keçid alır:
21 iyul 1981-ci ildə Azərbaycan KP MK-nın "Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında" qəbul etdiyi qərarda Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin xatirə muzeylərinin yaradılması, Bakı şəhərinin İstiqlaliyyət küçəsində Hüseyn Cavidin 1920-ci ildən 1937-ci ilədək yaşamış olduğu 8 saylı evin

fasadının təzələnməsi və ona yazıçının xatirə lövhəsinin vurulması göstərilirdi. Bu qərar əsasında Mədəniyyət Nazirliyninin 14 avqust 1981-ci il tarixli 228 saylı əmri ilə Hüseyn Cavidin 100 illik yubileyinin keçirilməsi və 15 dekabr 1981-ci il tarixli 522 saylı əmri ilə Bakı şəhərində Hüseyn Cavidin memorial muzeyinin açılması nəzərdə tutulurdu. Mədəniyyət Nazirliyinin 1991-ci il 16 aprel tarixli əmrinə əsasən adı çəkilən binanın 5 otağı Hüseyn Cavidin ev muzeyi üçün ayrılmışdı.

*Əbədiyyət yolçusu Hüseyn Cavidin yaradıcılığını və keşməkeşli, ancaq şərəfli ömür yolunu gənc nəslə və oxuculara çatdırmaq məqsədi ilə kitabxanada keçirilən tədbirlərlə yanaşı şairin Bakıda yerləşən ev-muzeyinə ekskursiya təşkil oluna bilər.*

*Ekskursiyanın müddəti 1-2 gün ola bilər. Səyahət "Cavid dünyasına boylanaq" adı altında keçirilir. Muzeyə səyahət hər kəs tərəfindən sevinclə qarşılanır. Səyahət Cavid yaradıcılığını daha dərindən tanıtmaq məqsədi daşıyır. Ekskursiya kitabxanaçının rəhbərliyi ilə keçirilir. Muzey işçisi oxucuları salamladıqdan sonra muzey haqda məlumata keçid alır:*

Muzey Bakıda-Hüseyn Cavidin 1920-37-ci illərdə yaşadığı evdə (İstiqlaliyyət küç.8) yerləşir. Hüseyn Cavidin ev muzeyi 1981-ci ildə Azərbaycanın dahi mütəfəfəkkiri, filosofu Şair-dramaturqu Hüseyn Cavidin anadan olmasının 100 illiyi münasibətilə ölkə başçısı, ümummilli liderimiz cənab Heydər Əliyevin 25 noyabr 1981-ci il tarixli, 604 saylı sərəncamı ilə yaradılmışdır. Muzey əvvəl Mədəniyyət Nazirliyinin tərkibində Hüseyn Cavidin xatirə muzeyi adı ilə, sonra isə, 1995-ci ildə Azərbaycan Respublikası Nazirlər Katinetinin 10 iyul 1995-ci il 160 saylı qərarı əsasında AMEA-nın tərkibinə daxil olmuşdur. AMEA-nın nizamnaməsi və AMEA-nın Rəyasət Heyətinin qərarına müvafiq olaraq elmi tədqiqat idarəsi hesab edilir.

Muzeydə müdriyyətdən başqa 6 şöbə və 1 yardımçı qurum fəaliyyət göstərir:
1.Cavidşünaslıq şöbəsi: H.Cavidin irsinə aid materialların tədqiqi, ekspozisiyası və səyyar sərgilərin mövzu ekspozisiya planlarının hazırlanması, internet saytının və virtual muzeyin hazırlanması təkmilləşdirilməsi, elmi sessiya, konfransların materiallarının və nəşr işlərinin hazırlanması işləri ilə məşğuldur.
2. Elmi-kütləvi işlər şöbəsi: H.Cavidin irsinin təbliği, ekskursiyaların təşkili və aparılması, sərgilərin nümayişi, konfransların, elmi sessiyaların və tədbirlərin təşkili işləri ilə məşğuldur.
3. Elmi fondlar şöbəsi: H.Cavid irsinə aid materiallarının toplanması, sistemləşdirilməsi, izahlı kataloqların hazırlanması işləri ilə məşğuldur. Şöbədə əlyazmalar bölməsi, insənət bölməsi, orijinal foto və neqativ bölməsi, kitab və dövrü mətbuat bölməsi, fonetika bölməsi fəaliyyət göstərir.
4. Bədii tərtibat söbəsi: Ekspozisiyanın və səyyar sərgilərin bədii tərtibatı, internet saytın və virtual muzeyin dizayn tərtibatı işləri ilə məşğuldur.
5. Ekspozisiya söbəsi: H.Cavid irsinin qorunması və təqdimi işləri ilə məşğuldur.
6. Ümumi şöbə: Təsərrüfat işləri ilə məşğuldur.
Elmə yardımçı qurum.
1.Kitabxana: H.Cavid və cavidlər irsinə aid kitabların toplanması, saxlanması və oxuculara xidmət edilməsi işləri ilə məşğuldur.
Ekspozisiyası 4 otaqdan ibarət olan muzeyin ümumi sah. 245 m2-dir. Muzeyin əsas fondunda 15.000 eksponat var. Ekspozisiyada 850 eksponat nümayiş olunur. Bu eksponatlar Hüseyn Cavidə məxsus sənədləri, ailəyə məxsus məişət və geyim əşyalarını, Hüseyn Cavidin əlyazmalarını, müxtəlif

illərdə nəşr olunmuş kitabları, səhnə əsərlərinin proqram və afişalarını, tamaşalardan fotoşəkilləri və ailəvi fotoşəkilləri əhatə edir. Son illərdə muzeyin aşağıdakı nəşrləri işıq üzü görüb. Muzeyə 2004-cü ilin sentyabr ayına kimi Turan Cavid rəhbərlik etmişdir. 12. 09. 2004-cü ildə Turan Cavid vəfat edib. 2004-cü ilin 9 oktyabr ayından muzeyə f.e.n. Gülbəniz Babaxanlı rəhbərlik edir.

Böyük Azərbaycan şairi və mütəfəkkiri Hüseyn Cavidin onun ev-muzeyi Bakı şəhərində daimi olaraq yaşadığı ünvanda-1920-1937-ci illər arası ömür sürdüyü İstiqlaliyyət küçəsi 8 saylı binanın 3-cü qatında yerləşir. Girişi İstiqlaliyyət küçəsi tərəfindən-Əlyazmalar İnstitutu ilə eyni qapıdan olan Hüseyn Cavidin ev-muzeyi Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən 3 muzeydən biridir. Muzeyin yerləşdiyi bina tanınmış xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin şəxsi təşəbbüsü və vəsaiti ilə İ.V.Qoslavskinin layihəsi əsasında 1898-1901-ci illərdə tikilmiş və müsəlman qadın məktəbi üçün nəzərdə tutulmuşdur. Məktəb 1918-ciilədək fəaliyyət göstərmişdir. XX yüzilliyi Azərbaycan ədəbiyyatının ən görkəmli simalarından olan böyük şair, dramaturq, filosof Hüseyn Cavid 1920-ci ildən 1937-ci ilədək həyat yoldaşı Müşkinaz xanım, oğlu Ərtoğrol və qızı Turanla bu mənzildə yaşamışdır. Böyük şair və mütəfəkkir Hüseyn Cavidin Vətənə qayıdışı və yaşadığı mənzildə ev-muzeyinin açılması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü, cəsarətli və ardıcıl səyləri ilə gerçəkləşmişdir. Muzeyin girəcəyində hekəltəraş Ömər Eldarovun yaratdığı və əsli Hüseyn Cavid prospektində ME-nın əsas binası ilə üzbəüz bağda ucalan, tuncdan tökülmüş "Cavid abidəsi"nin gipsdən olan kiçik variantı qoyulmuşdur (1993). Muzeyin ekspozisiyası 4 otaqda yerləşmişdir. Ekspozisiya üçün ayrılmış bu otaqlar şərti olaraq aşağıdakı kimi adlanır:

Giriş otağı-“Cavidin ədəbiyyatı”.
1-ci otaq-“Cavidin ömrü”.
2-ci otaq “Cavidin faciəsi”.
Soldakı zal-“Cavidin şöhrəti”.
Təqdim olunan muzey-ekspozisiyası planında Hüseyn Cavidin ev-muzeyinin tam təsviri və aparıcı mətnlər verilib. Hər bir oxucunun daha geniş biliyə və məlumata malik olması üçün aşağıdakı qaynaqların öyrənilməsi tövsiyə edilir.
1.Məhəmməd Cəfər Cəfərov. Hüseyn Cavid.
2. Qulam Məmmədli-Cavid-ömrü boyu.
3. Rəfael Huseynov. Vaxtdan uca.
4. Mehdi Məmmədov. Şirin arzular, acı fəryadlar.
5. Cavidi xatırlayarkən. Məqamlar və xatirələr toplusu.
6. Cəlal Qasımov. Cavidi məhbəsə aparan yol. Ekspozisiyanın ilk otağında bir-birindən sütün divarlarla ayrılan 3 şəbəkəli bölümün hər birində heykəltaraşlıq nümunələri və məqbərənin maketi yerləşir:
1. Ortada Hüseyn Cavidin məqbərəsindəki mərmər heykəlin natural ölçüdə gipsdən olan variantı. (Müəllif Ö.Eldarov). Bu heykəlin üst hissəsində Hüseyn Cavidin “Azər” poemasından misralar yazılıb:

Bir əlim iştə su, atəş bir əlim.
Çarpacaq qəlbim əgər, sussa dilim.

2.Solda Ərtoğrol Cavidin mərmərdən büstü. (Müəllif Ö.Eldarov). Heykəlin üst hissəsində H. Cavidin “Qadın” şeirindən misralar yazılıb:

Kimsədən gözləmə yardım əsla
Yalnız kəndinə kəndin ağla!

3.Sağda Hüseyn Cavidin Naxçıvandakı məqbərənin maketi. (Müəllif İbrahimov). Maketin üst hissəsində “Şeyx Sənan” əsərlərindən misralar yazılıb:

Bəni öldürsələr də, bən yaşarım.
Tərk edib xəlqi, xaliqə qoşarım.

Müdriyyətin qapısının sol hissəsində rəssam Rafael Əsədovun Cavidin "Topal Teymur" televiziya tamaşası üçün çəkdiyi dekor və obrazların geyim eskizləri (1983) nümayiş olunur. Dəhlizdə sıralanmış vitrində Hüseyn Cavidin əsrin ilk onilliklərində ərəb və latın qrafikası ilə nəşr edilmiş "Bahar şəbnəmləri", "Keçmiş günlər" , "İblis", "Şeyx Sənan", "Uçurum", "Topal Teymur" və sair əsərləri ilə yanaşı bəraətdən sonra işıq üzü görmüş müxtəlif dillərdə olan kitabları, Cavidin həyatı və yaradıcılığı ilə əlaqədar həm Azərbaycanlı, həm də əcnəbi müəlliflərin əsərləri düzülüb. Həmçinin burada Ə.Cavidin notları nümayiş olunur.

Əslən Naxçıvan MR-dan olan Hüseyn Cavidin doğma vətəni Naxçıvanda da, ev-muzeyi açılmış və fəaliyyət göstərməyə başlamışdır. Hüseyn Cavidin Naxçıvanda ev-muzeyi Azərbaycan KP MK-nın 25 dekabr 1980-cı il tarixli qərarı və Azərbaycan Nazirlər Sovetinin 13-fevral 1981-ci il tarixli sərəncamı ilə yaradılıb. Muzeyin rəsmi açılışı 1984-cü il iyun ayının 9-da olmuşdur. Ev-muzeyinin ümumi sahəsi 367m2, ekspozisiya yerləşən bina 212m2-dir. Muzeyin ekspoziyası və mövzu-tematik planı mərhum teatrşünas Tamilla Təhmasib tərəfindən hazırlanmışdır. Hüseyn Cavidin ev-muzeyində hazırda 7200-ə yaxın eksponat toplanmışdır. Onların içərisində Hüseyn Cavidin həyat və yaradıcılığını əks etdirən foto-şəkillər, sənədlər, əsərlərinin ilk nəşrləri, üzərində-müəllifin aftoqrafı olan 1934-cü ildə nəşr olunmuş "Səyavuş" və 1926-cı ildə nəşr olunmuş "İblis" əsərləri, böyük şairin yubileyləri, onu müxtəlif teaqtrlarda tamaşaya qoyulmuş afişa və proqramları, müxtəlif xatirə əşyaları vardır. Bu eksponatlar içərisində ədibin yaxın dostu Əziz Şərifin muzeyə şəxsən üzünü köçürüb bağışladığı Cavidin İstanbuldan Qurbanəli Şərifzadəyə göndərdiyi məktublardan ibarət dəftəri, şairin qızı Turan Cavid tərəfindən

hədiyyə edilmiş “Knyaz” əsərinin əlyazmasını və ailə şəkillərin orijinallarını, Ərtoğrol Cavidin hərbi xidmət illərində 1942-ci ilin 7 oktyabr tarixinə kimi Abxaziyadan, Tbilisi Hospitalından və Naxçıvandan Bakıya-anası Mişkinaz Cavidə və bacısı Turan Cavidə yazdığı 71 ədəd məktubu xüsusi qeyd etmək olar.

Tədbirin sonunda oxucular şair haqqında yazılmış bir neçə şeir deməyə başlayırlar:

Naxçıvanda Cavid çıxdı qarşıma,
Türbəsiydi indi vətən Cavidin.
Şahlıq quşu gördüm qonub başına,
Sürgünlərdə qəbri itən Cavidin.

Tutdurdular, öldürdülər şairi,
Yasaq oldu o şairlər şairi.
Türbəsinə qoymayın hər şairi,
Ruhu pakdı ilahidən Cavidin.

Qılıncını üstə çəkdi xəyanət,
Köməyinə nə dost çatdı, nə millət.
İlhamından qisas aldlı cəmiyyət,
Taleyindən üzü dönən Cavidin.

Gedən getdi, qalanları qaldılar.
Xiyabanda fəxri yerlər aldılar.
Atabəylər torpağında yadigar
Cavid qaldı fəxri adı Cavidin.

Başqaları bir ağ günə çıxdılar,
Tamaşaydı, səsə-ünə çıxdılar.
Yer altlından, yer üstünə çıxdılar,
Dalısınca Müşfiq, Hadi, Cavidin.

*Xalq şairi N.Həsənzadə*

Dahi Azərbaycan mütəfəkkiri, dramaturq, nasir Hüseyn Cavidin yaradıcılığını oxuculara tanıtmaq məqsədilə Hüseyn Caviddən bəhs edən xatirə gecəsi də təşkil edilir. Gecə "Gəldin də neçin pəmbə buludlar kibi akdın..." başlığı altındadır. Ədibin xatirəsinə həsr olunmuş gecədə cavidşünaslar, yazarlar, maarifçi və dramaturqlar, eləcə də incəsənət və elm xadimləri və müxtəlif ixtisas sahibləri ilə yanaşı oxucularla ali məktəb tələbələri də dəvət olunurlar. Qonaqlar görkəmli dramaturq H.Cavidin şəkilləri, müxtəlif adda əsər başlıqları və hikmətli sözlərinin çərçivərələrlə bəzədilmiş zalda əyləşirlər. Gecənin qonaqlarına öncə onun haqqında hazırlanmış slayt təqdim edilir. Gecəni açıq elan etmək üçün aparıcılar səhnəyə yaxınlaşırlar.

*I aparıcı:* Salam, dəyərli qonaqlar, xalqın böyük oğlu, misilsiz istedada sahib dahi şəxsiyyət, bəşəri faciə və humanizmin banisi Hüseyn Cavidin qaranlığa nur parlayan gecəsində sizləri xoş gördük, dəyərli qonaqlar, cavidsevərlər!..*"Məhəbbətdir ən böyük din"* misrası Hüseyn Cavidin şah misralarından biridir. Məhəbbət ədəbiyyatın əsas mövzularından olmaq etibarilə Hüseyn Cavid sənətində də mühüm yer tutur. Cavid sənəti ölməzdir. Cavid sənəti ölməz olduğu üçün Cavidşünaslıq da əbədidir. Bu zəngin iş barəsində deyilmiş, deyilən və deyiləcək fikirləri toplayıb gələcək nəslə çatdırmaq işində Cavid ocağının işığına pərvanə olanlara yeni uğurlar diləyirik.

*II aparıcı:* Haqq da, həqiqət də göz önündədir,
Yer altında deyil, yer üstündədir.
Bəxtiyarsan, əgər, çəkdiyin əmək
Cahan sərgisinə versə bir çiçək.

Romantik-fəlsəfi poeziyası ilə klassik və müasir ədəbiyyat arasında etibarlı mənəvi körpü salan, ilk Azərbaycan mənzum faciələrini, fəlsəfi dramlarını yaradan, dramaturgiyamıza və səhnəmizə ümümbəşəri problemlər dolğun xarakterlər, qüdrətli

şeiriyyət gətirən Hüseyn Cavidin əsərləri, doğrudan da, "cahan sərgisinin" "çiçək" ləridir.

Məqsədi vətəninə, millətinə fədakarlıqla xidmət etməkdən ibarət olan görkəmli şair və dramaturq Hüseyn Cavid öz dəst-xətti ilə Azərbaycan ədəbiyyatında yeni mərhələnin əsasını, eləcə də mənzum dramın bünövrəsini qoymuşdur. Sələf və xələflərinə bənzəməyən Hüseyn Cavid ürəyi susdurulana qədər vicdanının dediklərini yazan və ömrü boyu həqiqətən əsiri olan, gözəlliyə tapınan bir mütəfəkkir idi. Hüseyn Cavid elə bir həqiqətin əsiri idi ki, o altun saraylara, daş zindanlara, vəhşi pəncərələrə, tikanlı məftillərə, dəmir qəfəslərə meydan oxuyurdu. Hüseyn Cavid elə bir həqiqətin aşiqi idi ki, qumral gözəllərə, sevdalı könüllər, parlaq sevgilərə, gülümsəyən günəşə öz misraları ilə ağ yelkənlər kimi qanad açırdı.

*I aparıcı:* Ulu sələflərindən xeyli cavan olmasına, 135 yaşının hələ təzə-təzə tamam olmasına baxmayaraq, böyük sənətkarımız, babalarının layiqli xələfi, istedadlı şair və dramaturq Hüseyn Cavid də əsərlərində yaratdığı ölməz hikmətlərə görə Azərbaycan ədəbiyyatında və ədəbi-fəlsəfi fikrində həkim adını daşımağa layiq olan azyaşlı şəxsiyyətlərdən biri kimi nəzərə çarpmaqdadır. Hüseyn Cavid də xalqımızın yetirdiyi böyük söz sənətkarı və mütəfəkkirlər kimi, özündən əvvəki mədəni-mənəvi xəzinəni mənimsəmiş və ölməz fikir və obrazları ilə daha da zənginləşdirilmişdir. Bütün bunlar, nəhəng bir sənətkar kimi Cavidin bilik və məlumat dairəsinin heyrətamiz dərəcədə genişliyindən, onun xalq müdrikliyi xəzinəsinə olduqca yaxınlığından xəbər verir. Elə bu səbəbdəndir ki, Cavid aforizmləri Azərbaycan xalq müdrikliyinin ayrılmaz əlaməti olan dərin humanizmi, ümumbəşəri xarakter və məna yükü daşıması ilə seçilir. Hüseyn Cavidin yaradıcılığı o qədər dərin, o qədər mənalı hikmətlərlə doludur ki, bəlkə də beşcildliyin hamısını *"Cavid hikməti"* adı

altında çap etmək mümkündür. Gəlin, Cavid hikmətindən bir neçə yarpaq qoparaq:

*Bir neçə oxucu səhnəyə yaxınlaşıb sırayla Cavid aforizmlərindən sitatlar deməyə başlayırlar.*

İdrakı sönük başçıların qəfləti ancaq
Etmiş, edəcək milləti həp əldə oyuncaq.

Kəssə hər kim dökülən qan izini,
Qurtaran dahi odur yer üzünü.

Turana qılıncdan kəskin ulu qüvvət,
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!

Çalış, öyrən, ara, bul, haqqını al!

Ədəbiyyat bir millətdəki əhval-ruhiyyənin ifadəsidir.

Mən sənətdən aldığım zövqü heç bir şeydən almıram.

Hər qaranlıqda çırpınır bir nur,
Hər həqiqətdə bir xəyal uyuyur.

Qadın! Ey möhtərəm ənisi-bəşər!
Sənsiz öksüz qalırdı hissi-bəşər!

Yüksəl ki, yerin bu yer deyildir,
Dünyayə gəliş hünər deyildir.

Vətənə, millətə, millətin gələcəyinə ağlayacaq, tərəqqisinə çalışacaq olsa-olsa, ancaq ana qucaqlarında, məktəb sıralarında çırpınan məsumlar ola bilir.

Azərbaycana vurulan yaralar çox dərindi. O, namərd əllərdə mərd alim oğullarını itirdi. Əsrlər boyu bu yaralar sızlayacaq...

*II aparıcı:* Hüseyn Cavid gəncliyin qüdrət və məharətlə xalqa səadət bəxş edəcəyinə inanır və gənc nəslin daha mədəni, şən, xoş günlərdə yaşamasını arzulayırdı.

... Bu gün gəncliyə baxsan,
Bir sel kimi hər an,
Sağlam, yeni məfkurələr izlər,
...Onlar koşacaq, çarpışacaqlar.
Bir çox uçurumlar aşacaqlar.
...Onlardakı qüdrət və məharət,
Er-gec verəcək xalqa səadət.
Onlar mədəniyyətlə günəşlər yaxacaqlar,
Keçmişlərə üstən baxacaqlar.
Onlar güləcək, güldürəcək,
Bizdən daha xoş gün görəcəklər.

Böyük sənətkarımızın bu arzuları indi real bir həqiqətə çevrilmişdir. Xalqımız öz seçimini edərək, müstəqil dövlətimizin müqəddaratını, Azərbaycanın gələcəyini xalqa, vətənə səadət bəxş edəcək qüdrətli və məharətli gəncliyə etibar etmişdir.

*I aparıcı:* Qızıl yarpaqları, çiskinli havası, tutqun günləri ilə fərqlənən oktyabr ayı payızın başladığından xəbər verir. Qəribədir ki, bu ayın ömründə müxtəlif tarixi məqamlar, ad günləri, mərasimlər, seçkilər yaddaşa ədəbi iz salır. Adətən, oktyabra "Cavidlər ayı" da deyirlər. Hüseyn Cavid məhz oktyabrın 24-də Naxçıvanda Abdulla Rasızadə ailəsində anadan

olmuşdur. Maraqlıdır ki, ailənin bütün üzvləri məhz bu ayda dünyaya gəliblər. Oktyabrın 2-si şairin qızı Turan xanımın, 22-si oğlu Ərtoğrolun doğum günüdür.

*II aparıcı:* Monoloqlar Cavidin romantik-fəlsəfi üslubunu səciyyələndirən qüvvətli poetik əlamətlərdəndir. Monoloqlara müraciət şairin şeirlərinə romantik üslubun təbiətindən doğan təntənə, fəlsəfi vüsət gətirmiş, lirik qəhrəmanın zəngin duyğu və düşüncələr aləminin açılmasına imkan yaratmışdır. Cavidin yaradıcılığındakı başdan-başa monoloqlardan təşkil olunmuş "Sevinmə, gülmə, quzum", "Məyus bir qəlbin fəryadı", "Uyuyur", "Məzlumlar üçün", "Neçin" şeirlərində hər bənddəki monoloq konkret fikrin, mənalı bir hikmətin poetik ifadəsinə xidmət edir. "Uyuyur" şeirinin birinci bəndi bahar nəsiminə, sonrakı bəndlərindən hər biri ötuşkən quşlara, günəşə, çiçəklərə, mələyə həsr olunmuşdur. Bahar nəsiminə müraciətlə yazılan monoloqda sevgili məşuqə, çiçəklərə poetik münasibətdən yoğrulan monoloqda dünyanı dərk etmək yolundakı şübhələr, günəşə xitabən deyilən monoloqda "buludlu dünyadakı" qüvvətli işıq, səadət xəyalı tərənnüm olunmuşdur. Sonuncu monoloqda isə lirik qəhrəmanı məşğul edən bütün məsələlər onun "qayeyi-amal" ından doğan xəyallar kimi mənalandırılır:

Uyuyur... Of! Ey bəlalı könül,
Çırpınıb durma! Sən də sus artıq,
Vurma, sus! İştə susdu həm bülbül;
Dur, həyatım da getsə dur azacıq,
Uyuyur çünki aşinayi-xəyal,
Uyuyur çünki qayeyi-amal...

*II aparıcı:* Şeirlərindəki dialoqlar Cavidin lirikasına müəyyən süjet əlamətləri daxil etmişdir. Hətta onun bəzi şeirləri kiçik səhnəciyi xatırladır. "Öksüz Ənvər", "Çiçək sevgisi" şeirlərində lirik vəziyyətlər şeirin müəyyən hissəsindəki yığcam dialoqlarla

ifadə olunmuşdur. Dialoqlar əsasında yaradılmış "Qız məktəbində" şeirindəki poetik mükalimə Gülbaharın nəciblik və ülviliyini mənalandırmağa xidmət edir. Əsl zinəti təmizlik və bilgi olan, altun bilərzikləri ilə deyil, sadə geyimi, aydın, zəngin mənəviyyatı ilə fərdiləşən Gülbahar Cavidin şeir yaradıcılığındakı öksüz ənvərlərin, kiçik sərsərilərin bir növ davamıdır.

Dialoqlar "Qız məktəbində" şeirində dramatik mükalimədən çox təbii şeir misraları kimi səslənir, poetik etirafı ifadə edir:

Quzum, yavrum! Adın nədir?
Gülbahar.
Pəki, sənin anan, baban varmı?
Var.
Nasıl, zənginmidir baban?
Əvət, zəngin, bəyzadə...
Öylə isə geydiyin geyim neçin böylə sadə?..

*I aparıcı:* "Qız məktəbində" şeiri ümumən Azərbaycan şeirində süjetli lirikanın ən mükəmməl nümunəsi sayılmağa layiqdir. Şairin lirikasındakı poetik və fəlsəfi ümumiləşmələr fikrin hikmət tutumunu artırmış, aforizm səviyyəsinə yüksəlmişdir. Cavidin lirikasmda hətta elə şeirlər də vardır ki, orada bir-birinin ardınca gələn misraların demək olar ki, hamısı aforizmlərdən yoğrulmuşdur:

Yaşadan kainatı qüvvətdir,
Gücsüzün həp nəsibi zillətdir.
...kim ki, biganədir hüquqə, əvət,
Xain ellərdə məhv olur əlbət.
...Yaşamaq istərsən çalış, çabala,
Rəd olub gurla, bərq olub parla!

Bütün bunlar Cavid lirikasının novatorluğunu müəyyən edir.

*II aparıcı:* Bəşər övladı dünya açmamışdan onun alın yazısı yazılır. Kiminin qismətinə xoş günlər, kiminin taleyinə ağrılı məqamlarla dolu həyat düşür. Əzablı, ağrılı-acılı ömür yaşayanlardan biri də Hüseyn Cavid olmuşdur. Xalqımızın bu görkəmli qələm sahibi bütün yaşam boyu haqsızlıqlarla qarşılaşmış, əyilməmiş, yüksək mətinliklə, dəyanət və dözüm göstərmiş, bütün çətinliklərə sinə gərmişdir. Ulu Tanrı məhz sınmayan, əyilməyən insanlara bu qisməti yazır, onların taleyin sərt sınaqlarından keçirir. Cavid əfəndinin yaradıcılığı ilk əvvəllər rəğbətlə qarşılansa da, iblislərin sayəsində qasırğalara tuş gəldi.
*I aparıcı:* 1920-ci ildə Rusiya tərəfindən işğal olunduqdan sonra milli təfəkkürlü ziyalıların sıxışdırılması, təqib edilməsi başlandı. Bütün təqib və təzyiqlərə baxmayararaq, H.Cavid yaradıcılıq yolundan dönmək istəmirdi. Siyasi hadisələrin tüğyan etdiyi 20-30-cu illər sovet cəmiyyətində məsələ ağlasığmaz dərəcədə mürəkkəb idi. Köhnəni darmadağın dağıdıb, onun xarabalıqları üstündə quruculuq işləri aparan bolşeviklər ədəbiyyata özlərinin təbliğat və təşviqat vasitəsi kimi baxırdılar, onlar verdiklərini qonorar, vəzifə və imtiyazlar müqabilində yazıçılardan məhz bolşevizmi təbliğ edən alovlu əsərlər tələb edirdilər. Bunun acı nəticəsi 1937-ci ildə Cavid kommunist istibdadının qurbanı oldu, yəni Cavid repressiyanın ilk qurbanlarından birinə çevrildi. Əlbəttə, 1937-ci ilin qanlı hadisələri qəfildən baş vermədi. Əvvəl-əvvəl bu hadisələrə hazırlıq tədbirləri görüldü. 1937-ci il repressiyasına hazırlıq işlərinin görülməsində ədəbi tənqid xüsusi canfəşanlıq edir və mənfur rol oynayırdı. H.Cavidin sovet dövrünə qədərki əsərləri ağır mühakimə olunduğu kimi, 20-ci ildən sonra yazdıqları da ədəbi tənqidin kəskin hücumlarına məruz qalırdı. Cavid türk xalqlarının mənəvi birliyini diqqət mərkəzinə çəkməklə yalançı beynəlmiləlçiliyə qarşı çıxır, mövzularını müxtəlif xalqların

həyatından almaqla yalançı vətənpərvərliyi rədd edir. İnanmaq çətindir amma həqiqət budur ki, həm millətçi, həm də xalq düşməni kimi ittiham olunsa da, H.Cavid dönmədən öz yolu ilə gedir və bu yol onu vaxtsız ölümə aparırdı.

*I aparıcı:* Cavidin ölüm hökmünü İ.V.Stalin verdi: "Bu cənabları işçi sinfin düşmənləri kimi, vətənimizin xainləri kimi amansızcasına darmadağın etmək və onların kökünü kəsmək lazım gələcək". İ.V.Stalinin sözünə M.Bağırov dərhal "bəli" cavabını verdi: "Bir baxın, Yazıçılar İttifaqında kimlər əyləşmişdir? Vətən xainləri H.Cavid, M.Müşfiq, Ə.Cavad və başqaları. M.Bağırovun qurultaydakı çıxışından dərhal sonra adları çəkilən yazıçılar, eləcə də Cavid həbs olundu. İrəli sürülən ittihamlar təsdiq olunsun deyə NKVD dustaqxanasında müxtəlif işgəncə üsullarından istifadə olunurdu: yuxusuz saxlamaq, xüsusi qurğulardan istifadə etməklə kameraya soyuq hava üfürmək, döşəməyə soyuq su buraxmaq, ailə üzvlərinin həbs olunacağı ilə hədələmək, gözlərinə güclü işıq salmaq və s. Bütün bu işgəncələrə baxmayaraq H.Cavid ona qarşı sürülən əsas ittihamları rədd etdi. O vaxt "günahı" nı boynuna alanları güllələyir, onarın ailə üzvlərini isə həbs edirdilər. Məsələn, Ə.Cavadı, S.Hüseyni güllələmiş, xanımlarını, uşaqlarını həbs etmişdilər. H.Cavid "günahı" larını boynuna almamaqla ailəsini həbs olunmaqdan xilas etdi. Cavid həbs edilərkən Sibirə göndərildi.

*II aparıcı:* 1941-ci ildə 63 yaşlı şair İrkutsk vilayətinin Şevçenko qəsəbəsindəki həbs düşərgəsində ayaqlarının donması səbəbindən vəfat etdi. H.Cavid 1956-cı ildə bəraət aldı, 1982-ci ildə şairin nəşi ümummilli lider Heydər Əliyevin təşəbbüsü, təşkilatçılığı və göstərişi ilə Sibirdən gətirilib Naxçıvanda dəfn olunmuşdur. 1996-cı ildə H.Cavidə doğulduğu Naxçıvan şəhərində əzəmətli məqbərə ucaldıldı. Gələcəkdə adının etiramla anılacağına görə H.Cavid ona həqarət edib gülənlərin,

onu alçaltmaq istəyənlərin qarşısında sınmadı və məğrur səsini ucaldıb dedi:

Mənə gülməkdəsiniz gərçi bu gün,
Var yarın sizlər üçün qorxulu gün.
O zaman iştə ölənlər dirilər,
Kim nə yapmışsa cəza çəkdirilər.

*I aparıcı:* Sənətkarın dediyi o gün gəldi: Cavid adı ehtiramla çəkildikcə bir vaxt ona olmazın hədyan yağdıran, onun ölümünə bais olanlar tarix qarşısında cavab verməli oldular. H.Cavid milliliyi bəşəriliklə qovuşduran və insan olmağı hər şeydən üstün tutan bir sənətkardır...Yaxşı ki, dünyanın dəyişən vaxtı yetişdi. Yaxşı ki, Hüseyn Cavidin məhəbbəti susmuş ürəkləri dilə gətirdi. Vaxtılə böyük şairimizin ömür-gün dostu Müşkinaz xanımın "Cavidi xatırlarkən" adlı xatirəsi çapdan çıxmışdı. Təbii ki, sovet dövrünün müəyyən redaktələri bu kitabda öz işini görmüşdür. Müstəqilliyimizi qazandıqdan sonra rəhmətlik Müşkinaz xanımın "Cavid haqqında xatirimdə qalanlar" kitabı işıq üzü gördü. Xoşa gələn odur ki, Hüseyn Cavid necə varsa, geyimindən, yerişindən, vərdişindən ta yazı-pozusuna, dost-tanışa münasibətinə qədər Müşkinaz xanımın xatirələrində öz əksini tapıb. Bu kitabda duyulan xiffət böyük bir məhəbbətin dərinliyindən, vəfalılığın, sədaqətin nəhayyətsizliyindən xəbər verir: "...Ümid edirəm ki, Cavidim gələcək, yaralı ürəyimə təsəlli verəcək, göz yaşımı siləcək. Keçirdiyim günləri qələmə alacaq. Əfsus ki, o yolu gedən gəlməzmiş".

*II aparıcı:* Hüseyn Cavidin zəngin irsi və dərin psixologizm, humanizm və beynəlmiləlçiliklə aşılanmış əsərləri Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuşdur. Belə bir qiymətli irsi öyrənmək, onu nəsillərə çatdırmaq böyük insanpərvər və vətənpərvər şairimizə ən dəyərli mənəvi abidədir. Cavid- "ədəbi" , "həmişəyaşar" deməkdir. O, bu gün Bakıda ucaldılan abibədəsi, Naxçıvandakı məqbərəsi ilə dillərdə, ürəklərdə,

beyinlərdə sayrışan şeirlərilə, səhnələrdəki pyesləri ilə yaşayır. Cavid həyatı bitəcəksiz bir ömürdür.

*I aparıcı:* Tədbirin sonunda qonaqlara ssenarisi Anar Rzayevə aid olan, rejissor Ramiz Həsənoğlunun 2007-ci ildə çəkdiyi "Cavid ömrü" filmi təqdim olunur.

*F.Köçərli adına R.U.K-un "Biblioqrafiya" şöbəsi H.Cavidin yubileyi ilə bağlı "Haqq yolçusu-Cavid" adlı slayd hazırlayıb, F.Köçərli adına RUK-nın saitinə yerləşdirmişdir.*

## Ədəbiyyat siyahısı:

### *Əsərləri*

### *Kitablarda*

Seçilmiş əsərləri : poeziya. - Bakı : Çaşıoğlu, 2004. - 640 s.

Əsərləri : 5 cilddə. I cild : şeirlər və poema. - Bakı : Lider nəşriyyatı, 2005. - 256 s. - (Müasir Azərbaycan ədəbiyyatı)

Əsərləri : 5 cilddə. II cild : dram əsərləri. - Bakı : Lider nəşriyyatı, 2005. - 352 s. - (Müasir Azərbaycan ədəbiyyatı)

Əsərləri : 5 cilddə. III cild : dram əsərləri. - Bakı : Lider nəşriyyatı, 2005. - 304 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Əsərləri : 5 cilddə. IV cild : dram əsərləri. - Bakı : Lider nəşriyyatı, 2005. - 256 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Əsərləri : 5 cilddə. V cild : dram əsərləri, məqalələri, məktubları. - Bakı : Lider nəşriyyatı, 2005. - 288 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Əsərləri : 5 cilddə I cild : şeirlər və poema. - Bakı : Elm, 2005. - 255 s.

Bahar şəbnəmləri. İblis. Peyğəmbər : poeziya. - Bakı : Turan Nəşrlər Evi, 2002. - 300 s.

Topal Teymur. İblis. - Bakı : Atilla, 2001. - 163 s.

Dram əsərləri : poeziya / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Bakı : Avrasiya Press, 2007. - 460 s.

Şeirlər və poema. - Bakı : Elm, 2005. - 303 s.

Dram əsərləri / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Bakı : Təhsil, 2012. - 496 s.

Öksüz Ənvər ; İlk bahar ; Qız məktəbində ; Çiçək sevgisi : şeirlər // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 clddə. - Bakı : Öndər, 2004. - C.2. - S. 60-63.

Mənim tanrım ; Şərq qadını ; Azər düşünürkən və b. : şeirlər // XX əsr Azərbaycan poeziyası antologiyası.: 1920-ci illərin poeziyası. - Bakı : Elm, 2009. - I kitab. - S. 124-133.

Topal Teymur // Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. - Bakı : Şərq-Qərb, 2007. - C. 1. - S. 303-353.

***Hüseyn Cavid publisistikasından***

Həsbi – hal 1 // Azərbaycan publisistikası antologiyası. - Bakı : Şərq-Qərb, 2007. – S. 579 – 583. - (Müasir Azərbaycan ədəbiyyatı).

Həsbi – hal 2 // Azərbaycan publisistikası antologiyası. - Bakı : Şərq-Qərb, 2007. – S. 583 – 587. - (Müasir Azərbaycan ədəbiyyatı).

Həsbi – hal 3 // Azərbaycan publisistikası antologiyası. - Bakı : Şərq-Qərb, 2007. – S. 587 – 590. - (Müasir Azərbaycan ədəbiyyatı).

Həsbi – hal 4 // Azərbaycan publisistikası antologiyası. - Bakı : Şərq-Qərb, 2007. – S. 590 – 599. - (Müasir Azərbaycan ədəbiyyatı).

Həsbi – hal 5 // Azərbaycan publisistikası antologiyası. - Bakı : Şərq-Qərb, 2007. – S. 599 – 603. - (Müasir Azərbaycan ədəbiyyatı).

Müharibə və ədəbiyyat // Azərbaycan publisistikası antologiyası. - Bakı : Şərq-Qərb, 2007. – S. 574 – 579. - (Müasir Azərbaycan ədəbiyyatı).

Nakamlıq // Azərbaycan publisistikası antologiyası. - Bakı : Şərq-Qərb, 2007. – S. 606 – 608. - (Müasir Azərbaycan ədəbiyyatı).

Urmiyədən // Azərbaycan publisistikası antologiyası. - Bakı : Şərq-Qərb, 2007. – S. 603 – 606. - (Müasir Azərbaycan ədəbiyyatı).

***Dövri mətbuatda***

Qız məktəbində: şeir // Füyuzat. - 2008. - № 1(39). - S. 39.

Mənim tanrım ; Qız məktəbində ; "İblis" pyesindən İblisin monoloqu // Azərbaycan. - 2008. - № 9. - S. 3-4.

Türk əsirləri : şeir // Füyuzat. - 2012. - № 3. - S. 13.

Qadın : şeir // İşıq. - 2012. - № 2. - S. 17.

Öksüz Ənvər : şeir // Füyuzat. - 2012. - № 4. - S. 7.

Qoca bir türkün vəsiyyəti : şeir // Füyuzat. - 2013. - № 4. - S. 35.

Savalan. - 2012. - 23 -29 oktyabr. - № 76/77. - S. 2.

***Elektron resurslar***

Seçilmiş əsərləri [Elektron resurs] ; məsl. L. Məmmədova [et al.] ; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Electron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC

***Haqqında***

***Kitablarda***

**Atilla İ.** Cavidi xatırlarkən : məqalələr və xatirələr. - Bakı : Zərdabi, 2012. - 592 s.

**Atilla İ.** Əsrin şairi. II kitab : Cavid estetikası = Djavid the aesthetics : Sənət və gözəllik dünyası. - Bakı : Adiloğlu, 2010. - 416 s.

**Atilla İ.** Əsrin şairi. III kitab : Hüseyn Cavid Azərbaycan sovet ədəbi tənqidində = Husein Javid in Azerbaijan soviet literary criticism. - Bakı : Müəllim, 2011. - 246 s.

**Atilla İ.** Əsrin şairi. I kitab : Hüseyn Cavidin həyatı və taleyi = The poet of century. - Bakı : Adiloğlu, 2009. - 177 s.

**Atilla İ.** Əsrin şairi, yaxud peyğəmbər şair. - Bakı : Müəllim, 2007. - 64 s.

**Atilla İ.** Hüseyn Cavid: Mərd olun mərd ölün. - Bakı : Qanun, 2010. - 288 s.

**Atilla İ**. İnsan ömrü bir dalğa kimi : Turan Cavid haqqında sənədli xatirələr. - Bakı : Müəllim, 2010. - 280 s.

**Cavid M.** Cavid haqqında xatirələr. - Bakı : "XAN" nəşriyyatı, 2014. - 120 s.

**Əhmədli S.** Hüseyn Cavidin ev muzeyi. - Bakı : Şirvannəşr, 2009. - 168 s.

**Əlioğlu M.** Xəyal və həqiqət ; Lirik qəhrəman və həyat ; İdeal və varlıq : Hüseyn Cavidin lirik yaradıcılığı haqqında // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. - C.1. - S. 10-62.

**Əlioğlu M.** Hüseyn Cavidin lirikası // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. - C.1. - S. 9.

**Əlioğlu M.** Hüseyn Cavidin romantizmi : giriş // Darıxan adamlar. 2 cilddə. I c. - Bakı : Təhsil, 2009. - C.1. - S. 3-9.

**Kənan A.** Vətənə qayıdış : Hüseyn Cavid // XX əsrdə repressiyaya məruz qalanlar. - Bakı : Azərnəşr, 2011. - S. 22-30.

***Haqqında Dövri mətbuatda***

**Abbaslı T.** Aləm qələmlimiz : fikir sərkərdəmiz, milli əyilməzimiz - Hüseyn Cavid əfəndimiz... // Mədəniyyət. - 2013. - 25 oktyabr. - **№ 76**. - S. 11.

**Abbaslı T.** Başdan-başa Aşiq : Hüseyn Cavid - 130 // Mədəniyyət. - 2012. - 24 oktyabr. - **№ 77**. - S. 10.

**Abdullayeva A.** H.Cavid dramaturgiyasının tədqiqi mərhələləri // Mədəni - Maarif. - 2006. - №4. - S.34-36.

**Axundov B.** Böyük şairin xatirəsi : Hüseyn Cavidin ev muzeyi // Ədəbiyyat qəzeti. - 2012. - 29 sentyabr. - **№ 36**. - S. 5-6.

**Axundov B.** Cavid sorağında : Hüseyn Cavid - 125 // Ədəbiyyat. - 2007. - 16 noyabr. - S. 2.

**Axundov B.** Cavidli ünvanlar // Ədəbiyyat qəzeti. - 2013. - 25 oktyabr. - **№ 39**. - S. 8.

**Axundov B.** Əzablı yolların fədakar yolçusu : Hüseyn Cavidin ədəbi irsinə bir baxış // Xalq qəzeti. - 2009. - 4 iyun. - S. 5.

**Axundov B.** İnsanları gözəlliyə, idraka, işığa səsləyən ədib : Hüsey Cavid ev-muzeyi yaradıcılıq və tədqiqat mərkəzinə çevrilib // Kaspi. - 2016. - 6 dekabr. - № 200. - S. 10.

**Axundov B.** İnsanları gözəlliyə, idraka, işığa səsləyən sənət : Hüseyn Cavid haqqında // Ədəbiyyat qəzeti. - 2010. - 15 oktyabr. - № 40. - S. 1.

**Axundov B.** Tarixə dönmüş muzey : Hüseyn Cavidin ev muzeyi haqqında // Ədəbiyyat qəzeti. - 2008. - 17 oktyabr. - S. 2.

**Axundov B.** Hüseyn Cavid və ümumbəşəri problemlər // Səs. - 2015. - 3 sentyabr. - **№ 162**. - S. 12.

**Akimova E.** Cavid yaradıcılığı: Zamana baxış kontekstində // Ədəbiyyat qəzeti. - 2015. - 30 yanvar. - № 6/7. - S. 24-25.

**Asifqızı S.** Səma şairinin odasında // Mədəniyyət. - 2008. - 11 sentyabr. - S. 5.

**Aslan M.** Turan mələyi : Məmməd Aslan "Turan mələyi"ni 2004-cü ilin sentyabrında - Turan Cavidin dünyasını dəyişdiyi günlərdə yazmışdı // Ədəbiyyat qəzeti. - 2016. - 10 sentyabr. - № 33. - S. 18.

**Aslanlı M.(Huntürk).** "Cahan igid ərlərindir..." : Hüseyn Cavidin yaradıcılığı fonunda // Azərbaycan. - 2009. - № 12. - S. 163-170.

**Aslanov Y.** Nurlu ömrün işığı : Hüseyn Cavid - 125 // Azərbaycan müəllimi. - 2007. - 9 noyabr. - S. 7.

**Azəroğlu .** "Şeyx Sənan" Ərdəbildə və ya məhəbbətin qələbəsi : Hüseyn Cavid - 125 // Ədəbiyyat qəzeti . - 2007. - 2 noyabır. - S. 1, 3.

**Babaxanlı G.** Cavidə üz tutanda : Hüseyn Cavid - 130 // Ədəbiyyat qəzeti. - 2012. - 30 mart. - **№ 11**. - S. 1,3.

**Babaxanlı G.** Hüseyn Cavidi dünya ziyarət edir // Azərbaycan. - 2007. - 21 iyun. - S.6.

**Babaxanova G.** Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsi ümummilli lider Heydər Əliyevin xidmətidir // Azərbaycan. - 2006. - 17 may. - S.4.

**Behbudlu Ə.** Böyük dramaturq : Hüseyn Cavid - 130 // Ədəbiyyat qəzeti. - 2012. - 9 noyabr. - № 41. - S. 1-2.

**Behbudov Q.** Görkəmli şair-dramaturq və böyük mütəfəkkir : Hüseyn Cavid - 130 // İki sahil. - 2012. - 24 oktyabr. - № 196. -

S. 14.

**Bəhmənli V.** "Ayrı deyil, çünki birik daima" : Hüseyn Cavid haqqında // Mədəniyyət. - 2012. - 17 avqust. - № 60. - S. 7.

**Cavid M.** Cavid haqqında xatirimdə qalanlar : Hüseyn Cavid haqqında // Ədəbiyyat qəzeti. - 2006. - 1 dekabr. - S.1.

**Cəfərli M.** "Cavid möcüzəsi" və mifik təfəkkür : Hüseyn Cavid - 125 // Azad Azərbaycan. - 2007. - 31 oktyabr. - S. 7.

**Cəfərov F.** Cavid ömrünün səhifələri : Hüseyn Cavid - 130 // Xalq qəzeti. - 2012. - 2 dekabr . - **№ 269**. - S. 7.

**Cəmiloğlu İ.** Hüseyn Cavid Naxçıvan tarixinin möhtəçəm səhifəsi // İki sahil. - 2014. - 5 aprel. - **№ 57**. - S. 10.

**Cəmilzadə H.** Yetmiş illik ömrün şah əsəri // Respublika. - 2008. - 13 fevral. - S. 6.

**Cəmşidov Ş.** Böyük sənətkarlar haqqında xatirələrim // Ədəbiyyat qəzeti. - 2006. - 25 avqust. - S.2. .

**Dadaşov A.** Cavid əfəndinin "İblis"i // Ədəbiyyat qəzeti. - 2008. - 7 mart. - S. 2.

**Dadaşov A.** Cavid əfəndinin hünəri // Mədəni Həyat. - 2015. - № 1. - S. 22-25.

**Dadaşov A.** Cavidin səhnəyə həsrət pyesləri // Respublika. - 2008. - 20 may. - S. 10.

**Daşdəmirli Ə.** Fəxr edirəm ki, Heydər Əliyev bu məsuliyyətli işi məhz mənə həvalə etdi : Həmid Cəfərovla söhbət : söhbət Hüseyn Cavidin nəşinin uzaq Sibirdən Vətənə gətirilməsindən gedir // Azərbaycan müəllimi. - 2011. - 8 aprel. - № 13. - S. 8.

**Dünyamin qızı Q.** Yalnız həqiqətin yanında dayanan dahi : Hüseyn Cavid haqqında // Kaspi. - 2013. - 23 oktyabr. - № 192/1. - S. 15.

**Dünyaminqızı Q.** Bütün varlığı ilə cümhuriyyətçi olan ədib : belə bir qələbəni Hüseyn Cavid kimi azadlıq aşiqi necə alqışlamaya bilərdi?! // Kaspi. - 2016. - 28 dekabr. - № 216. - S. 15.

**Dünyaminqızı Q.** Hüseyn Cavid şəxsiyyətinə və yaradıcılığına layiq kitab : [Sevil Həsənovanın "H.Cavidin publisistikasında milli-mənəvi dəyərlərin inikası" adlı kitabı çap edilmişdir] // Kaspi. - 2017. - 12 aprel. - № 62. - S. 15.

**Dünyaminqızı Q.** Cəlladların yaddaşlardan silə bilmədiyi Cavidlər və yaxud iblislər yenə də Tanrı qarşısında məğlub oldu // Kaspi. - 2015. - 30 oktyabr. - № 178. - S. 7.

**Ercilasun A B.** Hüseyin Cavid və dilimiz hakkında // Ədəbiyyat qəzeti. - 2015. - 26 iyun. - № 41/42. - S. 2.

**Əfqan.** Cavid ölməzliyi // Azərbaycan. - 2009. - 23 may. - S. 6.

**Əhmədov R.** Hüseyn Cavid yaradıcılığı çağdaş düşüncə baxımından // Azərbaycan məktəbi. - 2013. - № 1. - S. 63-68.

**Əhmədova A.** Azərbaycan vokal musiqisində H.Cavidin yeri // Mədəni Maarif. - 2011. - № 7. - S. 45,46.

**Əhmədova A.** Ərtoğrul Cavidin musiqi dünyası // Mədəni Maarif. - 2011. - № 6. - S. 45-47.

**Əliyev H.** Yaxın keçmişdən uzaq gələcəyə // Mədəniyyət. - 2009. - 10 iyun. - S. 7.

**Əliyev K.** Hüseyn Cavidin sənət dünyası // Ədəbiyyat qəzeti. - 2014. - 11 aprel. - № 13. - S. 4.

**Əliyev K.** Min illərin sənətkarı : görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 30 may. - № 34/35. - S. 22.

**Əliyev T.** Azərbaycan mədəniyyətinin hamisi // İki sahil. - 2012. - 16 oktyabr. - № 190. - S. 30.

**Əliyeva G. (Kəngərli)** "Kəssə, hər kim tökülən qan izini..." : H.Cavidin "Peyğəmbər" dramında ideal şəxsiyyət məsələsi // Azərbaycan. - 2015. - № 2. - S. 164-169.

**Əliyeva G. (Kəngərli).** Romantik pafos və ideal həqiqət : Hüseyn Cavid // Respublika. - 2013. - 2 oktyabr. - № 216. - S. 7.

**Əliyeva G. (Kəngərli).** "Şeyx Sənan": sufizmdən romantizmə // Azərbaycan. - 2015. - № 10. - S. 163-167.

**Əliyeva-Kəngərli G.** Şeyx Sənan: təriqət və məhəbbətin faciəsi : Hüseyn Cavid – 130 // Ədəbiyyat qəzeti. - 2012. - 14 dekabr. - **№ 46**. - S. 4.

**Əliyeva G. (Kəngərli).** Tarixi həqiqət və poetik vüsət : tənqid və ədəbiyyatşünaslıq // Azərbaycan. - 2016. - № 4. - S. 188-192.

**Əliyeva G. (Kəngərli).** Tarixin hüzurunda: şair və hökmdar : Hüseyn Cavidin "Xəyyam" əsəri haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 13 iyun. - № 38/40. - S. 16-17.

**Əliyeva T.** Cavidin tarixi, tarixin Cavidi // Palitra. - 2017. - 31 yanvar. - № 17. - S. 15.

**Əsgərli Ə.** Cavid dünyası // Azərbaycan. - 2012. - № 5. - S. 183-186. - Hüseynov R. Əbədi Cavid. - Bakı: Nurlan, kitabına rəy.

**Əsgərli Ə.** Hüseyn Cavid və modernizm // Kaspi. - 2013. - 5 oktyabr. - № 182. - S. 20.

**Əsgərli Z.** Əsrin romantik şairi : Hüseyn Cavid - 130 // Ədəbiyyat qəzeti. - 2012. - 15 iyun. - № 22. - S. 1-2.

**Əsgərzadə L.** "Afət" əsərində mühit və gözəllik problemi // Mədəni-maarif. - 2007. - №4. - S.33-35.

**Əsgərzadə L.** Düşünən və düşündürən Cavid : Hüseyn Cavid // Mədəniyyət. - 2014. - 24 oktyabr. - № 81. - S. 11.

**Əsgərzadə L.** Mənim tanrım gözəllikdir, sevgidir : H. Cavid // Mədəni-maarif. - 2007. - № 3. - S.25-27.

**Əsgərzadə L.** Yazılan və yaşanan faciə : Hüseyn Cavid - 130 // Mədəni həyat. - 2012. - № 9. - S. 53.

**Günay.** Hüseyn Cavid aləminə səyahət : Hüseyn Cavidin ev muzeyində // Planet. - 2007. - 22 may. - S.19.

**Həsənova S.** Cavidlər ayı : Xalq yazıçısı və dramaturqu Hüseyn Cavid haqqında // Kaspi. - 2014. - 11 oktyabr. - № 166. - S. 20.

**Həsənova S.** O, həm də publisist idi : Hüseyn Cavid haqqında // Kaspi. - 2013. - 12-14 oktyabr. - № 187. - S. 7.

Hüseyn Cavid qəhrəmanları mənəvi-əxlaqi dəyərlər müstəvisində : Hüseyn Cavid - 130 // Azərbaycan məktəbi. - 2012. - № 5. - S. 33-39.

**Hüseynov R.** Millət müəlliminə : Heydər Əliyev və Hüseyn Cavid poeziyası // Xalq qəzeti. - 2010. - 11 dekabr. - № 272. - S. 2,3.

**Xəlilov S.** Zamanın və məkanın fövqünə yüksəlmiş filosof şair : Hüseyn Cavid - 125 // Xalq qəzeti. - 2007. - 6 noyabr. - S. 6.

**Xəlilov S.** Cavid və Cübran: ideya zirvəsində görüş : Hüseyn Cavid - 125 : ərəb şairi Cübran xəlil Cübran -125 // Ədəbiyyat qəzeti. - 2008. - 25 yanvar. - S. 1,3.

**Xəlılov S.** Cavid və Əttar // Ədəbiyyat qəzeti. - 2009. - 1 may. - S. 7.

**Xəlilzadə F.** Böyüklüyün, ucalığın, əbədiyaşarlığın ünvanı : Hüseyn Cavid - 130 // Azərbaycan. - 2012. - 24 oktyabr. - № 239. - S. 7.

**Xəlilzadə F.** Faciəli ömrün qəmli dastanı : Hüseyn Cavid - 125 // Azərbaycan. - 2007. - 24 oktyabr. - S. 7.

**Xəlilzadə F.** Hürriyyət öylə nazlı bir afət ki... : Hüseyn Cavid //

Kaspi. - 2013. - 21 sentyabr. - № 172. - S. 16.

**Xəlilzadə F.** Qaranlıqda parlayan nur // Azərbaycan. - 2008. - 24 oktyabr. - S. 8.

**Xəlilzadə F.** Milli qürurlu, torpaq sevgili... // Kaspi. - 2015. - 17-19 oktyabr. - № 170. - S. 7.

**Xudiyev H. (Cəmilzadə)** Hüseyn Cavid "tapılmışdı" - Heydər Əliyevin tapşırığı yerinə yetirildi // Kaspi. - 2014. - 15 - 17 fevral. - № 27. - S. 23.

**İmanov İ.** " Mənim tanrım gözəllikdir, sevgidir " // Xalq qəzeti. - 2007. - 23 may. - S.6.

**İmanov İ.** Hüseyn Cavid: Əsiri olduğum bir şey varsa, o da həqiqət və məhəbbətdir // Xalq qəzeti. - 2007. - 1 iyul. - S.5. .

**İsfəndiyarqızı N.** "Mənim gözümdə Cavid Əfəndi..." mövzusunda düşüncələr : "Dünyanın əsl qiymətini verə biləcək əxlaqda olmadığı Dahi - Hüseyn Cavid" // Kaspi. - 2012. - 13 noyabr. - № 421. - S. 12.

**İsfəndiyarqızı N.** Türkçülük və insanlıq şairi : Ankarada keçirilən Hüseyn Cavid konfransından təəssüratlar // Kaspi. - 2015. - 18 aprel. - № 68. - S. 10.

**Kazımoğlu M.** Sənətkarın əyilməzliyi : C.Qasımovun "Cavidi məhbəsə aparan yol" kitabı haqqında // Ədəbiyyat qəzeti. - 2008. -4 iyul. - S. 2.

**Qaliboğlu E.** Düşüncə şairi : Hüseyn Cavid haqqında // Mədəniyyət. - 2009. - 23 oktyabr. - N 77. - S. 12.

**Qaliboğlu E.** Repressiya 1937-72-ci illər // Mədəniyyət. - 2009. - 30 oktyabr. - № 79. - S. 7.

**Qarayev T.** Həyata keçən arzu : Azərbaycan dramaturqu Hüseyn Cavidin məqbərəsinin açılışı Heydər Əliyevin iştirakı // Azərbaycan. - 2010. - 8 may. - № 99. - S. 10.

**Qasımov C.** Cavid dünyasına səyahət : Salatın Əhmədovanın "Hüseyn Cavidin ev muzeyi" kitabı haqqında // Ədəbiyyat qəzeti. - 2009. - 9 oktyabr. - № 38. - S. 6.

**Qasımov Ə.** Cavid və Gənclik : Hüseyn Cavid haqqında // Vəfa. - 2006. - №1-2. - S.14-15.

**Quliyev Ə.** Hüseyn Cavid irsi Türkiyədə // Mədəni - Maarif. - 2007. - № 1/ 2. - S.16-17. .

**Quliyeva A.** Şeyx Sənan əsərində eşqin qələbəsi // Kaspi. - 2016. - 29 oktyabr. - **№ 175**. - S. 19.

**Quliyeva M.** Mənəvi xəzinəmizə bir nəzər // Azərbaycan məktəbi. - 2013. - **№ 4**. - S. 76-79.

**Mehdixanlı T.** Ulu öndərin təşəbbüsü ilə yaradılan muzeylər // Azərbaycan. - 2006. - 17 may. - S.4.

**Məhərrəmova T.** Hüseyn Cavid yenidən Türkiyəyə qayıtdı : İstanbulda "Hüseyn Cavid. Əsərləri" kitabının təqdimatı keçirilib // Kaspi. - 2014. - 28 mart. - № 50. - S. 4.

**Məhərrəmova T.** Türkiyədə Hüseyn Cavidə ucaldılan söz abidəsi : dahi ədibin əsərləri qardaş ölkədə ilk dəfə nəşr olundu // Azadlıq. - 2013. - 16-18 noyabr. - № 296. - S. 4-5.

**Məmmədova C.** Hüseyn Cavid və pozitivist düşüncə // Ədəbiyyat qəzeti. - 2014. - 15 avqust. - № 31. - S. 14.

**Məmmədova C.** Hüseyn Cavidin maarifçi və fəlsəfi görüşləri // Azərbaycan. - 2013. - № 3. - S. 170-177.

**Məmmədova N.** Azərbaycan sovet yazıçılarının əsərlərində sətiraltı-mətnaltı mənalar // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2011. - № 1. - S. 11-16.

**Mikayılov Ş.** Azərbaycan ədəbiyyatında Hüseyn Cavidin yeri // Təhsil problemləri. - 2007. - 1-10 dekabr. - S. 4-5.

**Mikayılov Ş.** Azərbaycan ədəbiyyatında Hüseyn Cavidin yeri :

Hüseyn Cavid - 130 // Məktəbəqədər və ibtidai təhsil. - 2012. - № 4. - S. 89-92.

**Miriyev A.** Cavid irsini təbliğ edən muzey // Palitra. - 2013. - 16 noyabr. - № 210. - S. 11.

**Miriyev A.** Cavid dünyası // Palitra. - 2013. - 14 noyabr. - № 208. - S. 11.

**Mirzəyeva Y.** Mövt ararkən cavid olan sənətkarın "İştə bir divanədən bir xatirə" şeirinə bir şərh dənəməsi (cəhdi) // Azərbaycan. - 2011. - № 4. - S. 164-170.

**Mürsəlov N.** Hüseyn Cavidin ev muzeyinin elmi-tədqiqat fəaliyyəti // Mədəniyyət.az. - 2015. - **№ 10**. - S. 90-93.

**Nağıyev Ə.** Cavidin əsərlərindən mən saatlarla sitat gətirə bilərəm : [Azərbaycan Respublikasının Belorus dövlətindəki səfiri Əli Nağıyevin "Neman" junalına  verdiyi müsahibə] // Ədəbiyyat qəzeti. - 2010. - № **45/46**. - S. 1-2.

**Naxçıvanlı Ə.** Cavid ocağının işığında : Hüseyin Cavid haqqında // Respublika. - 2009. - 8 sentyabr. - № 199. - S. 7.

**Nargis.** Ədəbiyyat səhnəsinin ən qalmaqallı "İblis"ləri : Joze Saramaqonun İsanın "İncili" və Hüseyn Cavidin "İblis" əsərlərinin müqayisəli təhlili // Ədəbiyyat qəzeti. - 2016. - 23 iyul. - № 26. - S. 22-23.

**Nərimanoğlu M.** Səma şairinin muzey həyatı : Hüseyn Cavid haqqında // Azərbaycan. - 2011. - 23 oktyabr. - № 235. - S. 6.

**Nərimanoğlu M.** Məqbərələr tanınmış şəxsiyyətlərə ehtiram rəmzidir // Azərbaycan. - 2011. - 15 dekabr. - № 277. - S. 7.

**Nizamiqızı H.** Hökmsüz məhkumluq : şair, yazıçı və dramaturq Hüseyn Cavid // Mədəniyyət. - 2013. - 1 noyabr. - № 78. - S. 11.

**Orucəliyev İ.** Hüseyn Cavidin pedaqoji düşüncələri // Azərbaycan Müəllimi. - 2012. - 16 noyabr. - № 45. - S. 8.

**Piriyev İ.** Tanrının " Həyat "  adlı əsərinin qəhrəmanları : Hüseyn Cavid haqqında // Kaspi. - 2012. - 18 dekabr. - № 446. - S. 12.

**Rəhimzadə M.** "Gəldin də neçin pənbə buludlar kibi akdın..."Buludlar kimi əbədiyyətə qeyb olan ulu şairin xatirəsi anında : Hüseyn Cavid-125 // Respublika. - 2007. - 26 oktyabr. - S. 2.

**Sadıqzadə Q.** "Yaman günün ömrü az olar..."  : Turan Cavid haq-da xatirələr // Ədəbiyyat qəzeti. - 2006. - 1 dekabr. - S.1,5.

**Salim F.** Cavidsiz // Kaspi. - 2017. - 6 yanvar. - № 1. - S. 11.

**Salim F.** İki sivilizasiyanın şairi // Kaspi. - 2011. - 2-4 iyul. - № 115 (2). - S. 20.

**Səmədli Ə.** Dünyanın qəm yükü : Hüseyn Cavidin ədəbi irsi // Ədəbiyyat qəzeti. - 2016. - 27 fevral. - № 8. - S. 7.

**Sərvaz.** Cavid o xoşbəxt sənətkarlardandır ki... : Hüseyn Cavid - 125 // Ədəbiyyat qəzeti. - 2008. - 11 yanvar. - S. 1-2.

**Şahtaxtlı M.** Şahtaxtı kəndi böyük şəxsiyyətlərin vətənidir : Hüseyn Cavid öz əsərində Şahtaxtı kəndini Şərqin günəşi adlandırmışdır // Azad Azərbaycan. - 2010. - 5 mart. - № 33. - S. 7.

**Tahirli A.** İstiqlal şairindən xilaskar paşaya hədiyyə : Hüseyn Cavid haqqında // Kaspi. - 2014. - 21 fevral. - № 31. - S. 6.

**Turan A.** Əli bəy Hüseynzadənin və Hüseyn Cavidin dil siyasəti // Ədəbiyyat qəzeti. - 2015. - 26 iyun. - № 41/42. - S. 8-9.

**Turan A.** İşığımız sönmədi. Sönməyəcək : Hüseyn Cavidin vəfatından 65 keçir // Ədəbiyyat qəzeti. - 2006. - 1 dekabr. - S.1.

.

**Turan A.** Turan Cavidin son söhbəti // Mədəniyyət.az. - 2016. - № 10. - S. 12-17. ; № 11. - S.18-23.

**Ulusel R.** Romantizm mədəniyyətində peyğəmbərlik idealı : Cavid və Cibranın "Peyğəmbər" əsərləri nümunəsində // Kaspi. - 2014. - 26-28 aprel. - № 71. - S. 7.

**Umudlu E.** Cavid müəllimlik peşəsindən zövq alırdı : Hüseyn Cavid – 130 // Azərbaycan Müəllimi. - 2012. - 28 sentyabr. - № 38. - S. 7.

**Umudlu E.** Kəssə hər kəs tökülən qan izini... : dahi Hüseyn Cavidin vəfatından 71 il ötür // Mövqe. - 2012. - 5 dekabr. - № 231. - S. 6.

**Ülkü İ.** Türk "Faust"unun yazarı Hüseyn Cavid // Ədəbiyyat qəzeti. - 2007. - 7 dekabr. - S. 3,6.

**Ülvi A.** Hüseyn Cavid və özbək ədəbi-mədəni mühiti // Azərbaycan. - 2012. - 21 oktyabr. - № 237. - S. 7.

**Vəliyeva S.** Yaklaşma, dur... Çəkil, asi : Hüseyn Cavid haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 4 iyul. - № 43. - S. 2.

**Vəzirov C.** Cavid pyesləri // Yeni Mədəni-maarif jurnalı. - 2008. - № 8. - S. 25-29.

**Vəzirov C.** Cavidlərin xəzanlı və səadətli payız ayları : Hüseyn Cavid // Mədəni - Maarif. - 2005. - №11. - S.46-48. .

**Yunisli F.** Rəsulzadə Cavid yaradıcılığı haqqında : Məhəmməd Əmin Rəsulzadə - 130 // Mədəniyyət. - 2014. 7 may. - № 34. - S. 11.

**Yunisli F.** Cavid - bu böyük ad nə qədər calibi - heyrət?! : Hüseyn Cavid - 130 // Mədəniyyət. - 2012. - 27 iyul. - № 54. - S. 12.

**Yunisli F.** Hüseyn Cavid-Əlibəy Hüseynzadə: düşüncə və ideyanın vəhdəti : Hüseyn Cavid - 130 // Kaspi. - 2012. - 30 oktybar. - № 412. - S. 12.

**Yunisli F.** Hüseyn Cavidin rus ədəbiyyatına münasibəti : Hüseyn Cavid - 130 // Mədəniyyət. - 2012. - 10 oktyabr. - № 73. - S. 15.

**Yusifli V.** Kəssə hər kəs tökülən qan izini : "Heydər Əliyev və Hüseyn Cavid" adlı kitab haqqında // Ədəbiyyat qəzeti. - 2013. - 11 oktyabr. - № 38. - S. 5.

**Zərbəliyev C.** Cavid ocağı // Mədəniyyət. - 2012. - 7 sentyabr. - № 64. - S. 6.

***Hüseyn Cavidə həsr olunmuş bədii əsərlər***

**Abuzərli N**. Eşq mələyi : Poeziya. - Bakı : MBM, 2012. - 168 s.

**Atilla İ.** Cavid : 3 hissəli drama. - Bakı : ADPU, 2009. - 76 s.

**Atilla İ.** Dram əsərləri. - Bakı : Qanun, 2010. - 144 s.

**Atilla İ.** Əsrin şairi. IV kitab : Hüseyn Cavidin mənzum dramaları : I hissə: Ana. Şeyx Sənan. Uçurum. İblis. - Bakı : Adiloğlu, 2011. – 436s.

**Dilbazi M.** Böyük Hüseyn Cavidə : şeir : ithaf : 1982 // Seçilmiş əsərləri. - Bakı : Lider, 2004. - S. 114-115.

**Həsənzadə N.** Burjua şairi : Cavidə həsr olunur // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 58-59.

**Həsənzadə N.** Cavidin : şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 153-154.

**İbrahimov H.** Böhtan : Roman. - Bakı : Şərq-Qərb, 1998. - 286 s.

**Təhməz B.** Cavid türbəsi önündə : Hüseyn Cavidə // Seçilmiş əsərləri. - Bakı : Araz, 2010. - S. 174.

# Azərbaycan ədəbiyyatının söz və fikir zadəganı
# Hüseyn Cavid

**(metodik vəsait)**

Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;
E-mail: childlibbaku@yahoo.com
URL:www.clb.az

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 27
Çapa imzalanmışdır:15.05.2017
Tirajı:100
Pulsuz